**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**İBRAHİM MƏMMƏD OĞLU MƏMMƏDOV**

# ERMƏNISTANIN AZƏRBAYCANA QARŞI İŞĞALÇILIQ SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ: 1988-CI IL SUMQAYIT HADİSƏLƏRİ

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI — 2015**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarıı İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
akademik **R.Ə.Mehdiyev**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, prof. **C.M.Cəfərov**
tarix üzrə elmlər doktoru **N.R.Məmmədov**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə__22/04_ 2015-ci ildə saat ______-da A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "__"______________2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Müasir Azərbaycan milli tarixşünaslığı qarşısında duran ən mühüm vəzifələrdən biri ermənilər və onların havadarları tərəfindən həyata keçirilən deportasiya, etnik təmizləmə və soyqırımı problemlərində tarixi baxımdan elmi həllinə nail olmaqdır. Hazırda bu problemlər Ermənistanın hərbi təcavüzünə məruz qalan Azərbaycan xalqı üçün həm siyasi-ideoloji həm də elmi əhəmiyyət kəsb edir. Bu gün bütün mütərəqqi bəşəriyyət üçün ciddi təhlükə sayılan etnik separatizmin ən qorxulu təzahürlərindən biri, heç şübhəsiz, təcavüzkar erməni terroru və separatizmidir. Açıq şəkildə bütün insanlığa və xüsusilə də türk dünyasına qarşı nifrət hissi aşılayan bu antibəşəri "fenome"nin mahiyyətini qonşu xalqlara qarşı ərazi iddiaları irəli sürmək soyqırımı, terror, deportasiya və müharibə yolu ilə ələ keçirdikləri Azərbaycan torpaqları hesabına öz cılız milli maraqlarına xidmət edən bədnam "Böyük Ermənistan" xülyasını reallaşdırmaq istəyi durur. Bu məqsədlə erməni millətçiliyi, onun ayrı-ayrı nümayəndələri ən çirkin vasitə və üsullardan istifadə etməyə çalışır, qonşu xalqların tarixini, maddi və mənəvi mədəniyyətini özününküləşdirməkdən belə çəkinmirlər. Ermənilər bütün dünyaya sübut etməyə çalışırlar ki, onlar dünyanın "ən qədim" xalqlarından biridir və guya onların yaratdıqları "Böyük Ermənistan" dünyanın ilkin dövlətlərindən biri olaraq Xəzər dənizindən Qara dənizədək böyük bir əraziyə malik olmuşdur. Ona görə də onların qonşu xalqların torpaqlarına tarixi və qanuni "hüquqları" vardır. Məhz bu səbəbdən ermənilər kompakt yaşadıqları bütün əraziləri separatizm ocağına çevirərək bu ərazilərin əsl sahibləri olan yerli millətlərlə münaqişəyə girirlər.

Hazırda erməni terroru və separatizmi Cənubi Qafqaz regionunun sivil dünyaya inteqrasiyası yolunda əsas maneə olaraq xalqların və dövlətlərin təhlükəsizliyini, əmin-amanlığın və gələcək birgəyaşayışının başlıca təhlükə mənbəyinə çevrilmişdir. Çoxsaylı erməni diasporunun maliyyə imkanları, Erməni Qriqoryan kilsəsinin dini-ideoloji təbliğat maşını, regionda maraqları olan, ermənilərin də mühüm mövqelər tutduqları müxtəlif dövlətlərin, güc mərkəzlərinin ikili standartlar siyasəti də Ermənistan "dövləti"nin təcavüzkarlıq siyasətinin daha da genişlənməsinə şərait yaradır.

Bu gün Azərbaycan elmi, publisistikası, jurnalistikası, ümumiyyətlə, bütün ictimai-humanitar sahələri qarşısında beynəlxalq siyasi dairələrdə və dünya ictimaiyyətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti və səbəbləri haqqında obyektiv fikir formalaşdırmaq, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin xarakterini və miqyasını bütün çılpaqlığı ilə açıb göstərmək, "məzlum", "əzabkeş" cildinə girmiş erməni şovinistlərinin əsl simasını ifşa etmək vəzifəsi durur. Bu bizim həm tarix qarşısında, həm də bütün bəşəriyyət qarşısında ən müqəddəs vəzifəmizdir. Bunu

həm də bizdən şəhidlərimizin ruhu, düşmən tapdağı altında olan torpaqlarımızın harayı tələb edir.

Ermənistanın Azərbaycan Respublikasına qarşı ideoloji müharibəsinin əsas istiqamətlərindən birini də regionda baş vermiş tarixi və müasir hadisələri saxtalaşdırmaq yolu ilə dünya ictimai fikrində xalqımızı gözdən salmaq və ləkələmək məqsədi təşkil edir. Bunun üçün onlar adi insani ləyaqət qaydalarına uyğun olmayan böhtan və iftiralardan istifadə edir, öz siyasi məqsədləri üçün ən alçaq vasitələrə belə əl atırlar. Şər və yalan bu gün də Azərbaycan xalqına qarşı ideoloji təxribatda əsas mübarizə vasitəsidir. Öz çirkin məqsədlərinə nail olmaq üçün erməni millətçiləri iğtişaş və qırğınlar törədərək öz soydaşlarının qanını tökməkdən belə çəkinmirlər. Etdikləri cinayətləri isə başqa xalqların boynuna atmağa çalışırlar. XIX-XX əsrlərin bir çox hadisələri bunun əyani sübutdur.

1988-ci ildə Sumqayıt şəhərində təşkil edilmiş cinayətkar siyasi təxribat hadisələri ermənilərin məkrli siyasətinin mühüm səhifəsini təşkil edir. Sumqayıt hadisələri ermənilərin tarixən qonşu xalqlara, birinci növbədə Qafqazın türk-müsəlman əhalisinə qarşı həyata keçirdikləri təcavüzkarlıq siyasətinin mühüm həlqələrindən biridir.

Ermənistan bu gün də Azərbaycan xalqına qarşı apardıqları informasiya müharibəsində Sumqayıt amilindən gen-bol istifadə edir, öz işğalçılıq siyasətlərini bununla ört-basdır etməyə çalışırlar. Bunun üçün kütləvi təbliğatın ən müasir vasitələrindən istifadə etməyə, xalqımız haqqında mənfi rəy yaratmağa cəhd edirdilər. Buna əmin olmaq üçün internet axtarış sistemində sadəcə "Sumqayıt" sözünü yazmaq kifayətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu amili nəzərdə tutaraq göstərir ki, Azərbaycan xalqına qarşı informasiya müharibəsi aparılır, bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycan xalqını geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri ilk növbədə erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır. Onların təsir dairələri kifayət qədər genişdir... Bəzi hallarda Azərbaycan Respublikasına qarşı kompaniya aparılır və çalışırlar ki, Azərbaycan dövlətinin imicinə koordinasiya edilmiş şəkildə xələl gətirsinlər. Onların fəaliyyəti məqsədyönlüdür və bu gün erməni lobbisi üçün bir nömrəli hədəf Azərbaycan Respublikasıdır. Biz bu mübarizəyə hazır olmalıyıq.[1]

Sumqayıt hadisələri ilə bağlı həqiqətlərin ortaya çıxarılması həm də Azərbaycan Respublikasının milli təhlükəsizlik və informasiya təhlükəsizliyinin mühüm tərkib hissəsidir. Çox təəssüf ki, bir çox məsələlərdə olduğu kimi 1988-ci il Sumqayıt hadisələrinə münasibətdə də Azərbaycan Respublikasında passiv mövqe tutulmuş, bununla da ermənilərin onlardan öz məqsədləri üçün yararlanmasına bir növ şərait yaradılmışdır. Lakin son vaxtlar beynəlxalq vəziyyət

[1] "Azərbaycan" qəzeti, aprel 2012

dünya ictimai rəyi getdikcə Azərbaycan xalqının xeyrinə dəyişməyə başlayır. Xalqımızın haqq işi, tarixi həqiqətlər dünyanın ən mötəbər tribunalarından eşidilməyə başlayır. Bunun əsas səbəblərindən biri də regionda baş verən proseslər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi-etnik kökləri haqqında dünya birliyinin daha çox obyektiv məlumatlar almasıdır. Lakin etiraf etmək lazımdır, Azərbaycan xalqının ümummilli problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hələ də dünya ictimaiyyətində məlumatsızlıqdan doğan yanlış təsəvvürlər və stereotiplər qalmaqdadır. Bu sırada 1989-cu ildə Sumqayıt şəhərində baş vermiş məlum hadisələr xüsusi yer tutur.

Azərbaycanın milli tarixini ağ ləkələrdən təmizlənərək yenidən obyektivliklə yazılması, yaxın keçmişimizdə baş vermiş hadisələrin düzgün şərh edilməsi və onlardan zəruri ibrət dərsləri götürülməsi üçün bu hadisələr ilk növbədə qərəzsiz, obyektiv elmi təhlildən keçirilməli, onlara əvvəlcə elmi, daha sonra isə hüquqi və siyasi qiymət verilməlidir.

1988-ci il Sumqayıt hadisələri erməni millətçi şovinist dairələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək üçün çox incəliklə işləyib hazırladıqları məkrli planının tərtib hissəsi idi. Bu ssenarinin müəllifləri, baş rejissorları, hətta aktyorları belə Ermənistanın millətçi qüvvələri, sponsorları xaricdəki erməni lobbisi, məsləhətçiləri isə antiazərbaycan dairələr idi.

Sumqayıt hadisələri ermənilərin Azərbaycan Respublikası torpaqlarını zəbt etmək uğrunda hərəkatının mənəvi-ideoloji fazasından aktiv siyasi-hərbi fazasına keçid oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt hadisələrini təhlil edərək qeyd edir ki "heç kim üçün sirr deyil ki Sumqayıt hadisələrini erməni millətçiləri törətmişlər. Bu onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idi. Məqsəd də aydındır ki, bu hadisələrdən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürülsün, ondan sonra azərbaycanlılara qarşı soyqırımını əsaslandırılsın[1]. Sumqayıt hadisələrini törətməklə erməni millətçiləri və onların havadarları Azərbaycan xalqına qarşı təcavüzdən əvvəl dünya ictimaiyyətini xalqımız əleyhinə köklələmək, azərbaycanlılar haqqında vəhşi obrazı yaratmaq, bununla da Dağlıq Qarabağ bölgəsi ərazisinin Azərbaycan Respublikası tərkibində qalmasının mümkünsüzlüyü haqqında bütün dünyada ümumi rəy formalaşdırmaq məqsədi güdürdülər. Buna görə də Sumqayıt şəhərində baş vermiş hadisələr Azərbaycan xalqına qarşı separatizm, terrorizm və işğalçı müharibəyə haqq qazandırmaq üçün törədilmiş provokasiya idi.

---

[1] Əliyev İ.H. 1912-ci il mayın 10-da Bakıda Heydər Əliyev Mərkəzinin açılışında, ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasimdə çıxış. "Azərbaycan" qəzeti, 2012-ci il, 11 may.

Bütün bunlar Sumqayıt şəhərində 1988-ci ilin fevralında baş vermiş hadisələrə dönə-dönə qayıdılmasına bu hadisələrin səbəblərinin, köklərinin dərindən araşdırılmasını, hansı nəticələrə gətirib çıxardığının obyektiv və hərtərəfli şəkildə öyrənilməsini və ibrət dərslərinin çıxarılmasını zəruri edir. Heydər Əliyevin qeyd etdiyi kimi bu gün dövlətimiz, xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırım siyasətinin ağır nəticələrinin aradan qaldırılması və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.[1]

***Tədqiqatın xronoloji çərçivəsi:*** Dissertasiya xronoloji baxımdan 1988-ci ilin fevralında Sumqayıt şəhərində baş verən hadisələrlə bərabər, ermənilərin Azərbaycan xalqına qarşı yeritdikləri düşmənçilik siyasətinin bütün mərhələlərini əhatə edir.

***Problemin öyrənilmə səviyyəsi.*** Sumqayıt hadisələrinə məhdud məkanda, məhdud zaman çərçivəsində baş vermiş lokal hadisə kimi baxılması məsələyə qeyri-elmi yanaşma olardı. Bu hadisələr, artıq qeyd edildiyi kimi, ermənilərin soyqırım siyasətinin tərkib hissəsi kimi uzun tarixi-siyasi köklərə malikdir. Ona görə də Sumqayıt hadisələrini tarixşünaslıqda "erməni məsələsi"nin tarixinin öyrənilməsi kontekstində nəzərdən keçirmək daha doğru olardı.

Tədqiqatın mühüm istiqamətini XX əsrin 80 illərində keçmiş SSRİ-də və Azərbaycan SSR-də cərəyan edən hadisələrin təhlili, ölkədə milli münasibətlərin kəskinləşməsi, Dağlıq Qarabağı ələ keçirmək üçün ermənilərin başladıqları təcavüzkar siyasətin işıqlandırılmasına həsr edilmişdir. Bu baxımdan həm sovet, həm müasir Rusiya, həm də erməni müəlliflərinin əsərləri müəyyən maraq kəsb edir. Düzdür, onların bir çoxunun, xüsusən erməni müəlliflərinin həmin dövrdə cərəyan edən proseslərə subyektiv, qərəzli münasibəti aşkar görünsə də onların bəzilərinin hadisələrin episentrində olması, M.Qorbaçovun yaxın ətrafını təşkil etməsi və qərarların qəbulunda yaxından iştirak etməsi həmin müəlliflərin əsərlərinə diqqəti daha da artırır. Xüsusən M.Qorbaçovun, F.Bobkovun, V.Boldinin, K.Brutunesin V.Medvedevin, A.Mütəllibovun, N.Rıjkovun, G.Şahnazarovun kitablarında bu baxımdan bir sıra diqqət cəlb edən məqamlar vardır[2]. Çox təəssüf ki, Azərbaycanda dövlət və ictimai xadimlərin öz dövrü, əhatəsi, fəaliyyəti barədə xatirələr, gündəlik və əsərlər yazmaq ənənəsi yoxdur. Ümumiyyətlə

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 33-cü cild. B., Azərnəşr, 200 , s.251

[2] Государственный Архив Российской Федерации. ФР-8131.оп. 31, д. 94438; Болдин В.И. Крушение пьедестала. Штрихи к портрету М.С.Горбачёва. М.: Республика, 1995; Брутунец К. Тридцать лет на старой площади. М.: Международные отношения, 1998; Медведев В.А. В команде Горбачева. Взгляд изнутри. М.: Былины, 1994, 239 с. www.lib.ru; Муталибов А.Н. Карабах. Чёрный сад. Документальное повествование. М.: Современник, 2001; Мелик-Шахназаров. Военные преступления Азербайджана против мирного населения НКО/ Ереван: Изд-во «Наири», 1997 // http: // www. Armenianhouse; Шахназаров Г. Цена свободы. Реформация Горбачёва глазами его помощника. М.: ЗEBS, 1993

ölkəmizdə memuaristika istiqaməti demək olar ki, inkişaf etməmişdir. Ona görə də həmin dövrdə Azərbaycan rəhbərliyində vəziyyət, cərəyan edən hadisələr haqqında ilk əldən məlumat almaq çox ciddi problem olaraq qalmaqdadır.

Sumqayıt hadisələri ərəfəsində ölkədə və respublikadakı vəziyyətin işıqlandırılması baxımından Azərbaycan müəlliflərinin əsərləri və kollektiv əsərlər[1] geniş təhlil edilmişdir.

Bilavasitə Sumqayıt şəhərində baş vermiş hadisələri araşdırarkən müəllif çoxsaylı ədəbiyyata müraciət etmişdir. Bu ədəbiyyatı həm müəlliflərin hadisələrə münasibəti baxımından, həm də orada proseslərin işıqlandırılması baxımından müxtəlif cür təsnifləşdirmək mümkündür. Birinci növbədə hadisələrin bilavasitə iştirakçısı olmuş və ya həmin zaman ölkə rəhbərliyinin Sumqayıtla bağlı qərar qəbulunda rolu olmuş, sonralar bu hadisələri öz kitablarında, xatirələrində, müsahibələrində qələmə almış müəllifləri – V.Krivopuskov, V.Lutsenko, V.Xmeylov, Q.Malyuşkin, A.Mostovoy, V.Nikolaev[2] və b. göstərmək lazımdır. Onlar Sumqayıt hadisələrinə ümumi ölkə miqyasında və millətlərarası münasibətlərin kəskinləşməsi kontekstində baxsalar da, bu hadisələrə münasibətdə siyasi rəhbərlikdə olan ixtilaflar, partiya rəhbərliyi ilə güc strukturları, xüsusən DTK arasında ziddiyyətlər, SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsinə, ermənilərin separatizm hərəkətinə münasibəti ilə bağlı həmin əsərlərdə çox ciddi faktlar vardır və müəllif bir sıra mülahizələrində onlara istinad etmişdir. Sov. İKP Siyasi Bürosu ilə DTK arasında münasibətlərin xarakteri, regionda baş vermiş milli münaqişələrin mənbəyi və s. məsələlər o zamanlar DTK sədrinin birinci müavini olmuş, hadisələr zamanı Sumqayıtda olmuş F.Bobkovun əsərlərində geniş işıqlandırılmışdır[3]. Müasir Rusiya Federasiyası tarixçilərdən R.Medvedevin, R.Pixoyanın, A.Şubinin əsərlərində[4] Sumqayıt hadisələri həmin dövrün siyasi prosesləri kontekstində işıqlandırılmışdır.

Sumqayıt şəhərində baş vermiş hadisələrlə bağlı bir çox məqamlar Sovet və

---

[1] Azərbaycan Respublikası. 1991-2001-ci il. Bakı, Elm, 1991; Azərbaycan tarixi, 7 clddə, VII cild. Bakı: Elm, 2008; Qəhrəmanov N.F. Sumqayıt hadisələrinə siyasi qiymət verilməlidir // Sumqayıt hadisələri: həqiqəti indiki və gələcək nəsillərə Konfrans materialları. // Sumqayıt, 2001; Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011; Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri. Bakı, 2000; Pompeyev Y. Qarabağ qan içində. Bakı, AEA nəşriyyatı, 1996; Аббасов А., Селимзаде Р. Город братства. Баку: Гянджлик, 1987; Бабанов И., Воеводский К. Карабахский кризис. СПб: 1992. http://Karabah.88.ru; Шукюров К. Численная динамика и этнический состав населения в НКАО // Карабах: Вчера, сегодня и завтра, I ч., Б., 2009;

[2] Кривопусков В. Мятежный Карабах. Из дневника офицера МВД СССР. М., Голос-Пресса, 2007. http://armenian.nouse.org; Лошакин В. Сумгаит. Эпилог трагедии. // «Московские новости», 1988, 22 мая; Луценко В., Хмелев В. Интервью газете «Труд», 2001 г., 1 февраля; Мостовой А. Резня. http://sumgait.info; Николаев В. Жывый в помощи. http://www.kodges.ru

[3] Бобков Ф.Д. Как готовили предателей. М.: «Алгоритм», 2011; Yenə onun КГБ и власть. М.: Ветеран МП, 1995

[4] Медведев Р. Советский Союз. Последние годы жизни. Конец Советской империи // М.: АСТ. Политграфиздат. 2010; Пихоя Р.Г. Москва. Кремль. Власть. Две истории одной страны. Россия на изломе тысячелетий. 1985-2005. М.: Русь-Олимп: АСТ, 2007; Шубин А.Б. Пародоксы истории. Упущенный шанс СССР. М. Вече, 2006

Rusiya jurnalistlərinin, publisistlərinin məqalələrində və internet yazılarında öz əksini tapmışdır. Əgər sovet dövründə (1988-91-ci illərdə) Sumqayıt hadisələri ilə bağlı yazılarda bir qədər balanslaşdırılmış xətt özünü göstərirsə[1] müasir rus müəlliflərinin bu hadisələrə münasibətdə qərəzliliyi, əksər hallarda erməni mövqelərindən çıxış etməsi açıq hiss olunur. V.İlyuxin, A.Mürsəliyev, D.Pompeyev, D.Furman bu baxımdan xoş istisna təşkil edirlər[2]. Onların yazılarında Ermənistan Azərbaycan Dağlıq Qarabağ, münaqişəsi və Sumqayıt hadisələrinə münasibətdə obyektivlik mümkün qədər gözlənilmiş, bu hadisələrin kökləri, Sovet, Rusiya rəhbərliyinin, ziyalıların mövqeyi qərəzsiz şəkildə təhlil edilmişdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində, o cümlədən Sumqayıt şəhərində baş vermiş hadisələrlə bağlı xarici müəlliflər arasında ingilis jurnalisti Tomas de Vaalın "Qara bağ. Ermənistan və Azərbaycan sülh və müharibə arasında" (2005-ci il), rus variantı əsəri xüsusi qeyd edilməlidir. Əsərin birinci və ikinci fəsilləri demək olar ki, bütünlüklə 1988-ci il və Sumqayıt hadisələrinə həsr edilib. Burada ermənilərin separatizm hərəkatı, Sumqayıt faciəsinə gətirən yollar təsnifatı ilə təhlil olunur. Müəllif həm erməni, həm Azərbaycan, həm də sovet mənbələrinə, hadisələrin bilavasitə iştirakçıların fikirlərinə əsaslanaraq bu hadisələrin baş verməsi haqqında öz mühazirələrini irəli sürür. O hadisələrlə bağlı mövcud olan bir sıra versiyalara da öz münasibətini bildirir. Azərbaycan tərəfinin versiyalarını da şübhə altına alan Tomas de Vaal eyni zamanda etiraf edir ki, əgər azərbaycanlıların Ermənistandan zorla qovulması haqqında faktlar geniş yayılsa idi, Sumqayıt hadisələrinin ümumi mənzərəsi heç də ağ-qara rəngdə olmazdı[3] (müəllif bu hadisələrdə yalnız azərbaycanlıların günahkar tutulmasını nəzərdə tutur – İ.M).

Dissertasiya hazırlanarkən erməni müəlliflərin Sumqayıt hadisələrinə həsr edilmiş saysız-hesabsız yazılarına da müraciət edilərək təhlil edilmişdir. Z.Balayan, X.Barseqyan, S.Zolyan,A.Marukyan, Melik-Şahnazarov, V.Movsesyan və başqa müəlliflərin Azərbaycana, Türkiyəyə nifrət hissi aşılayan böhtan və yalan dolu yazılarında[4] hadisələr tam saxtalaşdırılır və iddia edilir ki, əvvəla, guya

---

[1] Аракелян Ю., Кадымбеков З., Овчаренко Г. Эмоции и разум. О событиях в Нагорном Карабахе и вокруг него // «Правда», 1988, 21 марта, №81; Борисов Л. Предательство. Как рушилась великая империя. www.globalrus.ru; Кулиш О., Меликов Д. Чёрным семенам не прорасти. // Социалистическая индустрия, 1988 г., 27 марта; Скибицкий А.М. Карабахский кризис. Газета «Союз», 1991, №7; Сумгаит: Прокуратура продолжает следствие // «Бакинский рабочий», 1988, 19 августа

[2] ARPİİSSA. F. 1, s. 83, iş. 59; Илюхин В. Меня никто не заставит думать по-армянски // http://nesti.az/news.php?id=53908; Мурсалиев А. Азербайджан в российской прессе 1988-2000 гг. Субъективный взгляд объекта. www.sakharov-center.ru; Помпеев Ю.А. Карабахский дневник. М.: «Канон-РООНИ» «Реабилитация», 2010; Помпеев Ю.Кровавый омут Карабаха. Баку: Азербайджан, 1997, Фурман Д. Азербайджан и Россия. www.sakharov-cenrer.24

[3] Томас де Ваал. Чёрный сад. Армения и Азербайджан между миром и войной. М.: Текст, 2005; Балаян З. Между адом и раем. Карабахские этюды. М.: 1995

[4] Балаян З. Пожар и смрад // Голос Армении, 2009, 26 декабря, №142. Электронная версия; Барсегян

rəsmi məlumatların əksinə olaraq Sumqayıtda 32 deyil, yüzlərlə, hətta minlərlə erməni öldürülmüş, guya bu hadisələr Azərbaycanın rəsmi orqanlarının razılığı və bütün azərbaycanlıların fəal iştirakı ilə törədilmiş və məqsəd də guya erməniləri qorxutmaq, onları Dağlıq Qarabağ uğrunda ədalətli mübarizədən çəkindirmək olmuşdur. Erməni müəllifləri Sumqayıt hadisələrini azərbaycanlıların milli xislətinə uyğun gəldiyini iddia edir, bununla da bütöv bir xalqı vəhşi, qaniçən, fanatik kütlə kimi qələmə verməyə cəhd göstərirlər. Sumqayıt hadisələrinin bu cür ermənisayağı "təhlilinə" çoxsaylı erməni saytlarında, o cümlədən www. sumqait.info saytında rast gəlmək mümkündür].

Müstəqillik əldə etdikdən sonra müasir siyasi tariximizin bir çox hadisələri kimi, Sumqayıt hadisələrinə də yenidən baxmaq imkanı əldə edilmiş, bir sıra nəşrlər işıq üzü görmüşdür[1]. Bəzi nəşrlər istisna olmaqla onların əksəriyyəti üçün səthilik, hadisələrin kökünə varmamaq, təkrarçılıq, ümumi ştamp xarakterikdir[2]. Bunu Sumqayıt hadisələrinin ildönümünə həsr edilən çoxsaylı qəzet və məqalələrdə görmək mümkündür[3]. Son dövrdə işıq üzü görmüş və Sumqayıt hadisələrinin təhlilini də özündə əks etdirən iki nəşri də qeyd etmək lazımdır. Ç.Sultanovun "İmperiyanın son zərbəsi" adlı əsərində Sumqayıtda baş verənlər SSRİ-nin süqutu, ölkədə baş verən siyasi proseslər, Dağlıq Qarabağ məsələsi

---

Х.А. Истина дороже // Коммунист (Армения) 1988, 29 сентября; Золян С. Нагорный Карабах: проблема и конфликт. М.: Лингва, 2001: // www.armenianhouse.arg; Марукян А. Правовые аспекты геноцида армян на территории Азербайджана в 1988-1990 гг. на примере Сумгаита / http:www.rauam; Меньшиков М.О. Национальная империя. М.: Имперская традиция. 2004; Сумгаит. Геноцид…Гласность? Сборник Армянского историко-просветительского общества Гушаматян при содействии Армянского общества «Знание». Ереван, 1989. http://sumgait.info/sumgait.genocide-glasnost 1.htm

[1] Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin sonları – XX əsr). Bakı: Elm, 1998-ci il; Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. Bakı, Elm və Təhsil, 2011; Azərbaycan KP MK-nın «Sumqayıt şəhər partiya komitəsi bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında» qərarı. Kommunist qəzeti, 1988-ci il, 19 mart; İmanov R.S. Azərbaycanın ərazi bütövlüyünə qəsd-qondarma DQMV-i. Bakı, Adiloğlu, 2005-ci il; İsmayılov A. Sumqayıt-SSRİ-nin süqutunun başlancığı. Bakı, Çaşıoqlu, 2010-ci il; Mahmudov Y.M., Şükurov K.K. Qarabaq: Real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005; Məmmədov E. Sumqayıtda törədilən iğtişaş mətbuat səhifələrində // Azərbaycan, 2011-ci il; Məmmədov İ., Azərbaycana qarşı Sumqayıt təxribatı. "Qriqoryanın işi". Bakı, 2012; Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı. Azərbaycan, 1992-ci il; Məmmədov N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixi (1923-1991) tarix elmləri doktoru elmi dərəcəsi olmaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2011-ci il; Ализаде З. Азербайджанская элита и массы в период Распада СССР (статьи мемуары о бурном времени). http: Sakharov.center.ru; Sumqayıtda vəziyyətdə dair (Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Sumqayıt şəhərində baş verən qeyri-hüquq hərəkətlərin aradan qaldırılması haqqında), Kommunist, 1988-ci il, 3 mart; http:// www.prokurorlug.dov.az/sumgayit?=senedler

[2] Məmmədov E. İkinci paralel. Sumqayıtın tarixinə dair. Sumqayıt, 2000; Sadıqov H.S., Məmmədov R.S. Sumqayıt milli əsarət və ya milli səxavət? Sumqayıt, Şirvannəşr, 2004; Садыхов Г., Мамедов Р. Армяне в Сумгаите. Книга первая. Историко-социологический очерк [1938-1994 гг.]. Баку: Шур, 1994

[3] Xəlilzadə F. Təşkilatçılar və icraçılar erməni olmuşdur. Sumqayıt hadisələri // Azərbaycan qəzeti, 2005-ci il, 1 mart; Qəhrəmanov N.F. Sumqayıt hadisələri: həqiqətin bir üzü var // Respublika qəzeti, 2001, 1 mart; Mehdixanlı T. Qarabağı işğala aparan yol // Sümqayıt hadisələri. Azərbaycan, 2003, 20 fevral; Mustafa N. Sumqayıt hadisələri M.Qorbaçovun razılığı və SSRİ DTK-nın nəzarəti altında törədilmişdir // Xalq qəzeti, 2003, 28 fevral; Suleymanoğlu R. Sumqayıtdaki təxribat erməni ssenarisi əsasında baş verdi / Azərbaycan, 2006, 1 mart

fonunda geniş təhlil edilmiş, bu zaman xarici ölkə, əsasən Rusiya müəlliflərinin kitablarından internet materiallarından geniş istifadə olunmuşdur[1]. Sumqayıt hadisələrində dövlət ittihamçısı rolunda çıxış etmiş A.İsmayılovun "Sumqayıt – SSRİ-nin süqutunun başlanğıcı" adlı kitabında müəllif ittiham aktına, eləcə də öz xatirələrinə əsaslanaraq Sumqayıt hadisələrinin səbəblərinə bir sıra qaranlıq məqamlarına aydınlıq gətirməyə çalışmışdır. Müəllifin bu hadisələr zamanı respublika rəhbərliyinin tutduğu mövqeyə dair mülahizələri diqqəti cəlb edir. Azərbaycan Dövlət Televiziya və Radiosu Qapalı Səhmdar Cəmiyyətinin Sumqayıt hadisələrinə həsr etdiyi "Sumqayıtın əks –sədası " (2 film) və "Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi" adlı 3 hissəlik sənədli film həm hadisə iştirakçılarının məlumatlarına, həm də o zaman SSRİ rəhbərliyində təmsil olunmuş və Sumqayıtla bağlı proseslərin içində olmuş şəxslərin mülahizələrinə əsaslanaraq hazırlanmışdır[2]

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və 1988-ci Sumqayıtda baş vermiş təxribatın səbəblərini tam aydınlaşdırmaqdan ötrü "erməni məsələsinin" tarixi-siyasi, ərazi, demoqrafik köklərinin araşdırılması, Azərbaycan Dağlıq Qarabağ bölgəsində tarixi-demoqrafik, milli-etnik proseslərinin araşdırılması, Azərbaycan SSR-nin tərkibində DQMV-nin sosial inkişafı, mədəni inkişaf tarixinin izlənməsi kimi məsələlər mühüm əhəmiyyət kəsib edir. Bu məsələlər təqdim olunan dissertasiya müəllifinin monoqrafiyasında ətraflı işıqlandırılmışdır.

Onu da qeyd etmək lazımdır ki, son vaxtlar Sumqayıt hadisələrinin obyektiv araşdırılması həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün internetin imkanlarından daha yaxşı istifadə olunmağa başlamışdır. Erməni faşizminin iç üzünü açan, o cümlədən Sumqayıt hadisələrinin əsl mahiyyətini göstərən bir sıra internet resursları o cümlədən "Армянский терроризм XIX-XX веков", "Республика Армения – государство, поддерживаюшее терроризм", "www.human.qov.az", "http://azeri-info.comterror2htm"; "www.vesti.az"; "www.prokurorluq.qov.az/sumqait – sənədlər" hazırlanmışdır. Sumqayıt hadisələrinin təhlilində fəallıq göstərən müəlliflərin, o cümlədən T.Atayevin fəaliyyətini xüsusi qeyd etmək lazımdır[3].

Beləliklə, 1988-ci ilin fevralında Sumqayıt şəhərində törədilmiş hadisələrin ayrı-ayrı aspektləri milli tarixşünaslıqda və publisistikada işıqlandırılsa da, kompleks şəkildə tədqiqat obyekti olmamış, tarixi kökləri, səbəbləri, baş vermə şəraiti, hadisələrin gedişi və siyasi nəticələri sistemli şəkildə öyrənilməmişdir.

[1] Султанов Ч.А. Последний удар империи. Баку, 20 января 1990 г. Баку: Нафта-Пресс, 2004

[2] Azərbaycan Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətinin (Azteleradio QSC) videoarxivi, «Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi» sənədli film – I hissə. Qovluq 301099, rulon 4500;«Azteleradio» QSC-nin videoarxivi «Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi» sənədli filmi – II hissə. Qovluq 301100, rulon 4506; «Azteleradio» QSC-nin videoarxivi «Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi» sənədli filmi – III hissə. Qovluq 301100, rulon 4506.

[3] Атаев Т. Что стоит за сумгаитскими событиями 1988 г. http://atc.az

Tədqiqat işinin qarşısında duran əsas vəzifələrdən biri də bu boşluğu doldurmaqdır.

***Tədqiqatın mənbə bazası.*** Dissertasiya hazırlanarkən ən müxtəlif mənbələrdən, sənəd və materiallardan, memuar ədəbiyyatdan, statistik külliyyatlardan istifadə edilmişdir. XX əsrin 80-cı illərində baş vermiş hadisə və proseslərin mahiyyətini aydınlaşdırmaq baxımından ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı rəsmi sənədlər, söylədiklərini fikirlər tədqiqatın ən vacib mənbələrini təşkil edir[1].

Tədqiqatın ən mühüm mənbəyini Sumqayıt hadisələrinin təhqiqinə həsr edilmiş, ittiham aktı, şahidlərin ifadəsi, məhkəmənin hökmünü özündə əks etdirən çoxcildli 18/55461-88 №-li cinayət işinin materialları təşkil edir[2]. Bu sənədlər həmçinin http://www.prokurorluq@qov.azsumqayıt-senedler saytında da yerləşdirilmişdir. Bu dissertasiya hazırlanarkən ilk dəfə olaraq 34 cildlik 60-206 nömrəli cinayət işinin tam araşdırılmış, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin arxivindəki indiyə qədər aşkar edilməmiş sənədlərdən[3] istifadə etmişdir. Erməni separatizminin və təcavüzünün ifşa edilməsi baxımından bu sənədlər mühüm əhəmiyyət kəsb edir. İlk dəfə olaraq hadisələr zamanı SSRİ DTK-nın sədrinin 1-ci müavini olmuş və dəfələrlə Azərbaycan SSR-ə ezam olunmuş Filip Bobovdan və Sumqayıt hadisələrinin istintaqında iştirak etmiş, daha sonra SSRİ-də baş vermiş analoji hadisələrin tədqiqatına cəlb olunmuş V.Kaliniçenkodan geniş müsahibə alınmışdır.

Dissertasiyada həmçinin Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin materiallarından geniş istifadə olunmuşdur[4]. Adı çəkilən fondun işlərində Sumqayıt hadisələri ilə bağlı yaradılmış hökumət komissiyanın hesabatları, AKP MK Bürosunun qərarları və digər sənədlər toplanmışdır. Bu sənədlərin qiyməti ondadır ki, onlar heç bir zaman nəşr edilməmiş və elmi dövriyyəyə buraxılmamışdır. O zamankı SSRİ rəhbərliyinin Sumqayıt hadisələrində rolunu və münasibətlərini araşdırmaq baxımından Sov.İKP MK Siyasi Bürosunun sənədləri, o cümlədən 29 fevral 1988-ci il tarixli iclasın stenoqramı, müzakirə edilən məsələləri özündə əks etdirən qeydlər

---

[1] Azərbaycan beynəlxalq aləmdə. 3 cilddə, III cild. Bakı, 1998; Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı, 26 mart 1998. Azərbaycan qəzeti, 27 mart, 1998; Əliyev H. Müstəqilliyiniz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müraciətlər. 34 cilddə. Bakı, Azərnəşr, 1997-2012-ci illər; Əliyev İ.H. 1912-ci il mayın 10-da Bakıda Heydər Əliyev Mərkəzinin açılışında, ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə təntənəli mərasimdə çıxış. Azərbaycan qəzeti, 2012, 11 may; Əliyev İ. Respublika günü münasibəti ilə təntənəli mərasimdə çıxış, 25 may 2012. Azərbaycan qəzeti, 2012, 27 may; 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi torpaqlarından kütləvi deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 18 dekabr 1997-ci il. «Azərbaycan» qəzeti, 1997

[2] Azərbaycan Respublikası Prokurorluğunun Arxivi, 18/55461-88 №-li cinayət işinin materialları

[3] Azərbaycan Respublikası MTN arxivi. Sumqayıt hadisələrinə dair sənədlər

[4] ARPİİSSA. F. 1, s. 83, iş. 59.

əsərdə də geniş təhlil edilmişdir[1].

Azteleradio QSC-in videoarxivində saxlanılan və Sumqayıt hadisələrinin təhlilinə həsr edilmiş sənədli filmlər də qiymətli mənbələr sırasındadır. Bu mənbələrin əhəmiyyəti onunla ölçülür ki, orada hadisə iştirakçılarının, SSRİ rəhbərliyində təmsil olunmuş bir sıra şəxslərin şəxsi mülahizələri öz əksini tapmışdır.

1988-1989-cu illərdə Dağlıq Qarabağ bölgəsi və onun ətrafında baş verən hadisələrlə bağlı SSRİ və Azərbaycan SSRİ səviyyəsində qəbul edilmiş qərarların təhlili baxımından hələ sovet dövründə işıq üzü görmüş sənədlər külliyyatı[2] mühüm mənbələrdir.

Tədqiqat işində həmin dövrdə SSRİ dövləti və Azərbaycan SSR-nin mətbu orqanlarında işıq üzü görmüş, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Sumqayıt hadisələri ilə bağlı qəbul edilmiş qərarlar da geniş təhlil edilmişdir.

***Tədqiqatın məqsəd və vəzifələri***. Təqdim olunan tədqiqat işinin məqsəd və vəzifələri problemin elmi və siyasi aktuallığından irəli gəlir. Tədqiqatın əsas məqsədi Azərbaycanın müasir siyasi tarixinin ən mürəkkəb səhifələrindən olan, tarixə "Sumqayıt hadisələri" kimi daxil olmuş ictimai-siyasi hadisələrin tarixi köklərini, başvermə səbəblərini müəyyənləşdirmək, bu hadisələrin regionda baş vermiş gələcək proseslərə, xüsusən, erməni təcavüzkar separatizminin inkişafına təsirini araşdırmaq, obyektiv həqiqəti üzə çıxarmaqdan ibarətdir. Tədqiqat işinin qarşısında duran əsas məqsədlərdən biri də Sumqayıt hadisələrinin erməni millətçi –şovinist dairələrinin Azərbaycan Respublikasının qədim əzəli ərazisi olan Dağlıq Qarabağı işğal etmək üçün uzun müddət ərzində böyük ustalıqla işləyib hazırladıqları və həyata keçirdikləri mənfur planın tərkib hissəsi olduğunu müəyyənləşdirmək, Sumqayıt hadisələrindən Azərbaycan Respublikasını parçalamaq üçün məharətlə istifadə olunduğunu sübuta yetirməkdir. Tədqiqatın məqsədlərindən biri də Sumqayıt hadisələrinin SSRİ hakimiyyətindəki qarşı-qarşıya duran qüvvələrin arasındakı ziddiyyətlərin düyün nöqtəsi olduğunu açıb göstərməkdən ibarət olmuşdur. Bu məqsədlərə nail olmaq üçün aşağıdakı konkret vəzifələr müəyyənləşdirilmişdir: yenidənqurma siyasətinin həyata keçirilməsi zamanı SSRİ-də sosial-iqtisadi və siyasi böhranın, milli münasibətlərin kəskinləşməsi səbəblərinin araşdırılması; erməni

---

[1] Заседание Политбюро ЦК КПСС от 29 февраля 1988 г. Журнал «Родина», 1994; В Политбюро ЦК КПСС. По запискам А.Черняева, В.Медведева, Г.Шахназарова [1985-1991]. М.: 2006; Союз можно было сохранить. Белая книга. Документы и факты о политике М.С.Горбачёва по реформированию и сохранению многонационального государства. М.: Апрель-85, 199, 376 с. http:mirknig.com

[2] Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı: Elm, 1990-ci il; Dağlıq Qarabağ. Zəka qalib gələcək. Bakı, Azərnəşr, 1973; К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР 1918-1925 гг. Документы и материалы. Баку: Азернешр, 1989; События вокруг НКАО в кривом зеркале фальсификаторов. Сборник документов и материалов. Баку: Элм, 1989

millətçilərinin Sumqayıt hadisələri ərəfəsində öz məqsədlərinə nail olmaq üçün atdığı addımların, SSRİ rəhbərliyinə göstərdiyi təsirin mahiyyətinin açılması; 1987-ci ilin sonu, 1988-ci ilin əvvəllərində Azərbaycan SSR-də ictimai siyasi vəziyyətin təsviri, Dağlıq Qarabağda erməni etnik separatizmin güclənməsinin səbəblərinin araşdırılması; Ermənistan rəhbərliyi və milli şovinist dairələrinin Azərbaycan Respublikasına qarşı ərazi iddialarının genişlənməsi və açıq xarakter almasının siyasi şərtlərin müəyyənləşdirilməsi; Dağlıq Qarabağda separatçı hərəkatın başlanması, azərbaycanlıların Ermənistan SSR-dən qovulması ilə Sumqayıt hadisələri arasında birbaşa əlaqələrin müəyyənləşdirilməsi; ermənilərin fitnəkar planların nə üçün məhz Sumqayıt şəhərində keçirilməsinin səbəblərinin, bu hadisələrə gətirib çıxarmış sosial-siyasi, mənəvi, iqtisadi şəraitin səciyyələndirilməsi; Sumqayıtda törədilmiş kütləvi iğtişaşlarda, qətl və talan hadisələrində "erməni izinin "axtarılması; Azərbaycan xalqının, respublika rəhbərliyinin hadisələrə münasibətinin müəyyənləşdirilməsi; Sumqayıt hadisələrinə münasibətdə SSRİ rəhbərliyində mühafizəkarlarla liberallar arasında ziddiyyətlərin mövcudluğunun üzə çıxarılması, partiya rəhbərliyi ilə güc strukturları arasında qarşıdurmanın Sumqayıt hadisələrinin törədilməsinə təsirinin öyrənilməsi; Sumqayıt hadisələrinin ermənilərin Dağlıq Qarabağda təcavüzkarlığının artmasına, azərbaycanlılara qarşı Ermənistan SSR-də və DQMV-də soyqırım və deportasiya siyasətinin güclənməsinə bir başa təsir göstərdiyinin konkret faktlarla sübuta yetirilməsi;

***Tədqiqatın metodoloji əsasları.*** Mövzunun hərtərəfli araşdırılması üçün tarix elminin əsas metodoloji prinsipləri – obyektivlik, analiz, sintez faktların müqayisəli təhlili prinsipləri tətbiq edilmişdir. Obyektiv nəticələr çıxarılması üçün, konkret tarixi yanaşma metodundan, hadisə və proseslər arasında məntiqi və əlaqələndirmə üsulundan istifadə edilmişdir. İstifadə olunmuş mənbə və sənədlərə tənqidi münasibət, tarixi həqiqətlərə qərəzsiz yanaşma tədqiqatın elmiliyinin təmin edilməsi üçün əsas metod rolunu oynamışdır.

***Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.*** Tədqiqat əsəri Azərbaycan milli tarixinin ən mürəkkəb məqamlarından birini təşkil edən Sumqayıt hadisələri ilə bağlı bütün həqiqətlərin üzə çıxarılması istiqamətində atılmış mühüm addımdır. Dissertasiya bu hadisələrin ermənilərin soyqırım, deportasiya, terrorizm və işğal siyasətinin mühüm həlqəsini təşkil etdiyini sübut edən əyani materialdır. Burada erməni faşizminin insanlığa zidd mahiyyəti açılmış, onun əsl sifəti ifşa edilmişdir.

Bu baxımdan dissertasiyanın və onun nəticələrinin mühüm siyasi və elmi əhəmiyyəti vardır. Dissertasiya materiallarından erməni yalanlarını ifşa etmək, elmi və publisistik materialların, sənədlərin, filmlərin, internet saytlarının hazırlanması üçün istifadə edilməsi tövsiyə olunur. Əsər Azərbaycan tarixinin tədrisində, müəllim və tələbələrin metodiki hazırlığında, kurs işləri, diplom və

dissertasiyaların yazılmasında, elmi tədqiqatların aparılmasında istifadə oluna bilər.

Dissertasiya həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dərk edilməsində, milli siyasi təfəkkürün və tarixi yaddaşın formalaşmasında, bütövlükdə gəncliyin vətənpərvərlik tərbiyəsində mühüm vasitədir.

***Tədqiqatın aprobasiyası.*** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya bu şöbədə iki dəfə müzakirə olunmuş və şöbənin 12 iyun 2014-cü il tarixli iclasının qərarına əsasən müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın əsas müddəaları, başlıca nəticələri müəllifin bu problemlə bağlı nəşr etdirdiyi elmi məqalələrində, həmçinin respublikamızda keçirilən, eləcə də beynəlxalq elmi-praktik konfranslarındakı çıxışlarında öz əksini tapmışdır.

***Dissertasiyanın quruluşu.*** Dissertasiya giriş, 7 paraqrafdan ibarət 3 fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiyanın aktuallığı, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, problemin mənbəşünaslıq və tarixşünaslıq təhlili verilmişdir.

Dissertasiyanın **I fəsli «Sumqayıt hadisələri ərəfəsində SSRİ-də və Azərbaycan SSR-də siyasi vəziyyət»** adlanır və iki yarımfəsildən ibarətdir. «SSRİ-də siyasi və iqtisadi böhranın dərinləşməsi, milli münasibətlərin kəskinləşməsi» adlanan birinci yarımfəsildə Sumqayıt hadisələrinin siyasi-iqtisadi vəziyyəti, milli münasibətlərdə cərəyan edən hadisələr təhlil edilmişdir. Burada sovet sisteminin iflasına gətirib çıxarmış amillər işıqlandırılmış, bu iflasın sovet sosializminin ümumi böhranının nəticəsi olduğu qeyd edilmişdir. Yarımfəsildə SSRİ-nin çoxtərəfli və dərin böhranın müxtəlif aspektlərinə toxunulmuş, bu böhranın əsas göstəricilərindən biri kimi kadr böhranı qeyd edilmişdir. 80-ci illərdə SSRİ-də dərinləşməkdə olan iqtisadi böhranın əsas səbəbləri və nəticələri yarımfəsildə geniş elmi təhlil edilmiş, bütün bunların ölkədə sosial narazılığını artırmasına, milli münasibətlərin kəskinləşməsinə gətirib çıxardığı vurğulanmışdır. Qeyd edilmişdir ki, milli münasibətlər sovet cəmiyyətinin ən ziddiyyətli və bu ziddiyyətlərin aradan qaldırılması üçün zəruri mexanizmlərin olmadığı sahələrdən biri idi. Dissertasiyada milli münaqişələrin dərinləşməsinin müxtəlif amilləri nəzərdən keçirilmiş, Yenidənqurma dövründə SSRİ-nin müxtəlif yerlərində baş vermiş münaqişələrin əsas mahiyyəti açıqlanmışdır.

I fəslin ikinci yarımfəsli «Ermənistan SSR-in Azərbaycan SSR-ə qarşı ərazi iddialarının güclənməsi» adlanır. Yarımfəsildə, «Yenidənqurma»dan istifadə edərək erməni daşnaklarının «Böyük Ermənistan» uğrunda mübarizəni gücləndirmələri, Qarabağda təcavüzkar separatizmin Moskvanın bəzi dairələri tə-

rəfindən dəstəklənməsi konkret faktlarla işıqlandırılıb. Müəllif bir sıra müəlliflərə, o cümlədən Tomas de Vaala, xüsusi təyinatlı «Vityaz» dəstəsinin keçmiş komandiri, S.Lısyaka, SSRİ Baş prokurorunun müavini olmuş V.İlyuxinə, SSRİ DTK-nın sədrinin birinci müavini F.Bobkova əsaslanaraq ermənilərin M.Qorboçov başda olmaqla SSRİ rəhbərliyi tərəfindən dəstəkləndiyini açıb göstərir. Yarımfəsildə Qarabağ separatçılarının başçıları R.Koçaryanın, S.Sarkisyanın, Z.Balayanın və başqa erməni millətçilərinin pozuculuq fəaliyyəti, Moskvadakı və xaricdəki erməni lobbisinin, eləcə də bir sıra xarici dövlətlərin və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qızışmasında rolu açıb göstərilir.

Qarabağ avantürasının həyata keçirilməsində əsas mane olan Heydər Əliyevin SSRİ-nin siyasi rəhbərliyindən uzaqlaşdırmağa nail olan ermənilər açıq fəaliyyətə başladılar. Sonradan Heydər Əliyev öz istefasının doğurduğu nəticələri təhlil edərək göstərirdi ki, Azərbaycan Respublikasında bəla ondan başladı ki, 1987-ci ildə ermənilər bizim azərbaycanlıların bəziləri ilə birlikdə, mənim Kremldən istefa verməyimə nail oldular. Bundan iki ay sonra Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində xalqımıza qarşı üsyan, münaqişə başladı.[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu prosesləri təhlil edərək göstərirdi ki, 1987-ci ildə Heydər Əliyev SSRİ-nin siyasi rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra Azərbaycanın problemləri başlandı. Heydər Əliyev amili, onun gücü imkan vermirdi ki, belə iddialar (Dağlıq Qarabağa ermənilərin iddiaları – İ.M.) ortaya qoyulsun.[2]

Yarımfəsildə Heydər Əliyevin istefasından sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında baş vermiş proseslərin əsas mərhələləri geniş təhlil olunur, Dağlıq Qarabağda, Yerevanda ermənilərin fitnəkar hərəkətlərinin Moskva tərəfindən dəstəkləndiyi göstərilir. Sov. İKP Siyasi Bürosunun və SSRİ hökumətinin Dağlıq Qarabağla bağlı qəbul etdiyi qərarlar münaqişənin nizamlanmasına deyil, daha da qızışmasına, vilayətin Azərbaycandan qoparılmasına gətirib çıxardığı vurğulanır. Çox təəssüf ki, münaqişə başlayarkən Azərbaycan SSR rəhbərliyinin Dağlıq Qarabağ məsələsinə dair müstəqil mövqeyinin və aydın siyasətinin olmaması, hadisələrinin gedişinə təsir edə biləcək nüfuzlu liderin yoxluğu da ermənilərin hərəkətlərinin açıq-aşkar təcavüzkar xarakter almasına gətirib çıxarırdı.

Dissertasiyanın **II fəsli «Sumqayıt fitnəkarlığının mahiyyəti və məqsədləri»** adlanır. Fəslin birinci yarımfəslində Sumqayıt hadisələrinin törədilməsinin sosial-siyasi şəraiti təhlil olunur. Yarımfəsildə Sumqayıt şəhərinin inkişaf mərhələlərinə nəzər salınır, 1963-cü ildə bu şəhərdə baş vermiş iğtişaşlara toxunulur, şəhərin inkişafının spesifik xüsusiyyətlərinin, əhalinin strukturunun, so-

[1] Azərbaycan beynəlxalq aləmdə, 3 cilddə, III cild. B., 1998, s.571-572.
[2] "Azərbaycan" qəzeti, 2012, 11 may.

sial-iqtisadi problemlərinin kəskinliyinin burada sosial etirazlar üçün münbit şərait yaratdığı qeyd olunur.

Digər bir mühüm məqam şəhər əhalisinin orta yaş həddinin 25 yaş təşkil etməsi, hər beş sakindən birinin məhkumluğunun olması idi.[1] Hadisələr ərəfəsində burada 1500-dən çox əvvəllər məhkum olunmuş şəxs yaşayırdı və onlar 1987-ci ildə cinayət məsuliyyətinə cəlb olunanların 30,9%-ni təşkil edirdilər.

Münaqişəyə qədər ermənilər bütün Azərbaycanda olduğu kimi Sumqayıtda da azərbaycanlılarla müqayisə də daha firəvan yaşayırdılar. Ermənilər müxtəlif vaxtlarda şəhər idarəetmə orqanlarında, ticarət və iaşə obyektlərində, partiya, inzibati-hüquq, kommunal və s. sahələrdə ən yüksək vəzifələrdə çalışırdılar. Erməni ideoloqlarının iddialarının əksinə olaraq maddi rifah halının bir sıra göstəricilərinə görə sumqayıtlı ermənilər azərbaycanlılardan qat-qat irəlidə idilər. «Naxalstroy» ərazisində yaşayan 2150 ailə içərisində erməni ailəsi yox idi.[2]

Hadisələri törədənlər Azərbaycan xalqına ləkə yaxmaq, ermənilərin əzabkeş obrazını yaratmaq, sovet və dünya ictimaiyyətini ermənilərlə azərbaycanlıların birgə yaşamasının mümkünsüzlüyünə inandırmaq məqsədi güdürdülər.

Fəslin «Cinayət xarakterli siyasi təxribatın hazırlanması və həyata keçirilməsi» adlanan ikinci yarımfəslində 1988-ci il fevralın 28-29-da Sumqayıt şəhərində baş vermiş iğtişaşların əsil səbəbləri, nəticələri təhlil olunur. Bu hadisələrdə erməni millətindən olan 26 nəfər və 6 nəfər azərbaycanlı həlak olmuş, 197 nəfər, o cümlədən 100 hərbçi və milis ziyan çəkmişdi. Bədən xəsarəti alanların 54 erməni, 74 azərbaycanlı idi. Vətəndaşların mülkiyyətinə və sosial obyektlərə külli miqdarda ziyan vurulmuşdu.[3] İğtişaşları araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən 18/55461-88 nömrəli cinayət işi açılmışdı.

Hadisələr ərəfəsində bütün erməni «sexovşikləri», imkanlı erməni ailələri şəhəri tərk etmiş və buraya hazırlıqlı erməni kinematoqrafçıları gəlmişdilər.

Ermənistandan qovulmuş 18330 nəfər azərbaycanlı (3030 ailə) Sumqayıtda müvəqqəti məskunlaşmışdı, baxmayaraq ki, ermənilər bu zaman Azərbaycan Respublikasında sakit yaşamaqda davam edirdilər. Sumqayıtda fevralın 26-27-də Qarabağ hadisələri ilə bağlı keçirilmiş ilk etirazların iştirakçıları da məhz onlar idilər. Fevralın 28-də keçirilmiş kortəbii mitinqlərdən sonra şəhərdə iğtişaşlar başlamışdı.

İlk əvvəl mitinq sakit keçsə də haradansa peyda olmuş şəxslər mitinqçilər arasında spirtli içkilər və narkotiklər paylamağa başlamış, bundan sonra isə kütlə şəhərə dağılaraq talanlara başlamışdı. Maraqlıdır ki, talançıların bir qrupuna üç məhkumluğu olan erməni E.Qriqoryan başçılıq edirdi ki, məhz bu qrup

[1]Томас де Валл. Черный сад. Армения и Азербайджана между миром и войной. М., Текст, 2005, с.57.
[2] Садыхов Г., Мамедов Р. Армяне в Сумгаите. Историко-социологический очерк. Б., Шур, 1994, с.146-148.
[3] ARPİİSSA, f.1, s.83, iş 59, v.34.

talanlarda öz qəddarlığı ilə fərqlənmiş və bütün qurbanların əksəriyyəti bu dəstənin əli ilə törədilmişdi.

Sumqayıt hadisələrinin kökündə «Krunk» və «Qarabağ» təşkilatlarının erməni millətçi hərəkatı üçün vəsait topladığı, ümumi büdcəyə pul ödəməyənləri isə cəzalandırmaq qərarına gəldikləri, elə buna görə də Sumqayıtda evinə hücum edilən ermənilərin məhz «Krunk» təşkilatına pul ödəməyən ermənilərin olması fikri təhqiqat nəticəsində sübut edilmişdir.[1] Bu da törədilmiş talanların təsadüfü olmadığını göstərirdi. Sumqayıt hadisələrində erməni millətçiləri pozğun elementlər və cinayətkarlardan istifadə etməyə üstünlük vermişdilər. Dissertasiyada ermənilərin müxtəlif dövrlərdə öz çirkin niyyətlərini həyata keçirmək üçün oxşar metodlardan istifadə etmələrinə dair çoxlu misallar da gətirilmişdir.

Hadisələrin xronoloji ardıcıllıqla düzülüşü ilk baxışdan görünməz bir əlin hər iki tərəfi qızışdırdığını və azərbaycanlı əhalini təxribata çəkdiyini göstərir. Bir çox tədqiqatçılar, o cümlədən Tomas de Vaal Sumqayıt hadisələrinin Dağlıq Qarabağda baş verən hadisələrə reaksiya olduğunu göstərirlər. Lakin talanların araşdırılması təhqiq olunmamış çoxsaylı müəmmaları ortaya çıxardı. Buraya qətllərdə iştirakı sübut olunmuş E.Qriqoryanın ermənilərlə əlaqəsi, əlində ermənilərin mənzillərinin siyahısının olması, qətlləri və vəhşilikləri nümayişkarcasına həyata keçirməyə cəhd göstərməsi haqqında cinayət materiallarında kifayət qədər materiallar olsa da istintaq onları araşdırmayıb. İstintaq həm də talanın arxa planında qalmış, amma istintaq əlamətləri bəlli olan təşkilatçılarını axtarmağa da cəhd göstərməyib. Halbuki, təşkilatçılarla bağlı bütün izlər İrəvana, Xankəndinə (Stepanakertə), Moskvaya qədər uzanaraq orada itir. Dissertasiyada bu izlər və istintaqın araşdırmadığı başqa suallara cavab axtarılıb tapılmışdır.

İstintaq materiallarına söykənən müəllif Qriqoryanın başçılıq etdiyi qrupun formalaşması, idarə olunması mexanizmlərini müəyyən edərək Qriqoryanın bu talanları hələ xeyli əvvəl planlaşdırdığını göstərir. Bunu istintaq materiallarındakı şahid ifadələri də təsdiq edir.[2] Dissertasiyada talanların məhz Qriqoryan tərəfindən təşkil edildiyini sübut edən bir sıra mühüm faktlar da gətirilmişdir.

Ermənilər, Qriqoryan adlı adamın ümumiyyətlə mövcud olmadığını iddia etsələr də, istintaqı aparan müstəntiqlər, o cümlədən V.Kaliniçenko bu adamın mövcudluğu, onun əlində xüsusi siyahı olduğunu təsdiq edir. İfadələrdən görünür ki, Qriqoryan mənzilləri qarət etmirdi, daha çox adam öldürməyə, zorlamağa və bunu nümayişkaranə şəkildə etməyə üstünlük verirdi. Məhz onun tələbi ilə Emma Qriqoryan adlı bir erməni qadın öz mənzilində deyil, küçədə adamların gözü qarşısında qətlə yetirilmişdi. E.Qriqoryanın DTK-dan olan kuratoru da erməni S.Ohanesyan idi.

---

[1] Azərbaycan Respublikası Prokurorluğunun arxivi, 18/55461-88 №-li cinayət işinin materialları, v.95-96.
[2] Yenə orada, в.48, 57, 66, 85,86, 177-178, 184, 196-197, 232, 292, 293, 297, 298.

Faktlar sübut edir ki, DTK orqanları E.Qriqoryan haqqında kifayət qədər məlumata malik olsalar da, bu məlumatlara DTK-nını yuxarı orqanlarında laqeyd yanaşılmışdı. Sumqayıt talanlarında başqa ermənilərin, hətta milliyyətcə rus və ukraynalı olanların iştirak etməsi bu hadisələrin etnik toqquşma olmadığını göstərir.

Sumqayıt hadisələri ilə əlaqəli olub, ancaq istintaqçıların araşdırmadığı məqamlardan biri də talanlar baş verən gün hadisələri çəkən operatorların kim olmalarıdır. Bunu Sumqayıt hadisələri zamanı əməliyyat müvəkkili olmuş Y.Qalasilkin də təsdiq edir.[1] Məlum olmuşdur ki, hadisələr baş verməmişdən əvvəl naməlum operatorlar Sumqayıta gələrək müxtəlif yerlərdə kameralar quraşdırmış, onların çəkdikləri videokadrlar dərhal xarici dövlətlərə göndərilərək azərbaycanlılar haqda vəhşi obrazı formalaşdırmaq üçün istifadə edilmişdi. Digər müəmmalı məqam hadisələr ərəfəsində Ermənistandan xeyli adamın Bakıya gələrək mehmanxanalarda yerləşdirilməsi idi.

Hadisələr dövründə ermənilər öz soydaşlarına qarşı xüsusi məqsədlə təxribatlar törədib, sonralar həmin hadisələrdə azərbaycanlıları ittiham etməyə çalışmışlar.[2] Maraqlı məqamlardan biri də hadisələr ərəfəsində ermənilərin öz bank hesablarını bağlamalarıdır. Ən mühüm müəmmalardan biri də E.Qriqoryanın izinin Yerevanda itməsidir.

İğtişaşlarla bağlı Sumqayıt şəhər prokurorluğunda cinayət işi açılmış, zorakılıq hadisələrinə ilkin hüquqi qiymət verilmiş, Qriqoryan və bir çoxları həbs olunmuşdular. Lakin 1988-ci il martın 1-də SSRİ Baş prokurorluğunun istintaq qrupu Sumqayıta gələrək cinayət işini öz icraatına götürmüşdü.[3] 181 nəfərlik istintaq qrupunun yalnız 41-i azərbaycanlı idi ki, onlar da mühüm məsələlərlə bağlı istintaqa deyil, ikinci dərəcəli işlərə cəlb olunmamışdılar.

Hadisələr baş verdiyi dövrdə Sumqayıtda işləmiş partiya, sovet, hüquq-mühafizə orqanları işçilərinin ifadələri də hadisələrin əsəl mahiyyətini üzə çıxarmağa imkan verir.

Fəslin üçüncü yarımfəslində Azərbaycan xalqının Sumqayıt hadisələrinə münasibəti təhlil olunur. Qeyd olunur ki, erməni millətçilərinin Sumqayıt faciəsindən öz məkrli məqsədlərinə çatmaq üçün istifadə etmək, azərbaycanlıları vəhşi, özlərini isə məzlum göstərmək cəhdlərinə baxmayaraq bu hadisələr Azərbaycan xalqının müdrikliyinin və insanpərvərliyinin daha bir nümunəsi oldu. Həmin faciəli günlərdə bir çox sumqayıtlı öz həyatını təhlükə altına qoyaraq erməni millətindən olan vətəndaşları xilas etməyi bacarmışdılar. Sadə azərbaycanlıların həmin dəhşətli günlərdə göstərdikləri fədakarlıqlar haqqında

---

[1] Azərbaycan Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətinin (Azteleradio QSC) videoarxivi. Sovet imperiyasının gizlinləri – «Qriqoryanın işi» sənədli filmi. Qovluq 301099, rulon 4500-4506.

[2] http://www.prokurorluq.gov.az/Swmqayit?=senedler

[3] Известия, 1988, 30 марта.

çoxsaylı faktlar dissertasiyanın bu yarımfəslində gətirilmişdir. Hadisələrdən sonra Sumqayıta komendant təyin edilmiş V.Krayev də etiraf edirdi ki, əgər sakinlər bizə kömək etməsəydilər, qurbanların sayı daha çox olardı. Bir nəfər azərbaycanlı avtobus sürücü, on nəfər ermənini dərhal Şəki şəhərinə, öz vətəninə aparmışdı. Başqa bir azərbaycanlı ailə çoxmərtəbəli evin qabağında xuliqanların yolunu kəsmişdi. Bir fəhlə öz erməni dostu ilə avtobusda gedərkən bir dəstə adam qəfildən maşını saxlayıb ermənini tələb etmişdi, azərbaycanlı fəhlə özü yaralansa da, dostunu xilas etmişdi.[1]

SSRİ Prokurorluğu Baş istintaq idarəsi rəisinin müavini V.Nenaşev və SSRİ Prokurorluğu yanında xüsusi işlər üzrə müstəntiq V.Qalkin «İzvestiya» qəzetinə müsahibələrində də azərbaycanlıların həmin hadisələr zamanı özlərini soyuqqanlı apardıqlarını təsdiq etmişdilər: «Azərbaycanlıların mütləq əksəriyyəti bu hadisələri ürək ağrısı ilə qarşıladılar...Qəti surətdə demək lazımdır: erməniləri gizlətmiş azərbaycanlı ailələr bizi daha böyük bədbəxtliklərdən qorudular.[2]

Hadisələr zamanı sumqayıtlıların insanın hərəkətlərini sübut edən faktlardan biri də asayişi bərpa etmək, erməniləri qorumaq üçün müxtəlif yaşayış yerlərində, istehsal kollektivlərində, tədris müəssisələrində əsasən gənclərdən ibarət könüllü dəstələr yaradılması idi. Məhz onların sayəsində daha çox tələfatın qarşısını almaq mümkün olmuşdu.[3] Azərbaycanlıların böyük rəqs altında erməniləri xilas etmələrini elə Sumqayıtın erməni millətindən olan sakinləri də qeyd edirdilər. R.Andiriyan soyadlı erməni yazırdı: "günahsız insanlar ölmüşdür… Lakin onlar Dağlıq Qarabağ hadisələrinə görə şuluqluq törətmiş xuliqanların, banditlərin əlindən ölmüşlər. Əclaf millətdən kənar anlayışdır… həmin günlərdə məhz azərbaycanlı qonşularım mənə kömək əli uzatdılar".[4]

Sumqayıt talanları ərəfəsində və gedişində şəhər hüquq mühafizə orqanları, o cümlədən o zamankı sovet milisi adlanan polis imkanları daxilində xeyli vətəndaşı talandan qoruya bilmişdi. Bunu ermənilərin özləri də etiraf edirdilər.[5] Sumqayıtda yaşamış ermənilərin məlum hadisələrdən sonra İrəvanda verdikləri müsahibələr Azərbaycan sovet milisinin Sumqayıt talanları zamanı fəaliyyətinə işıq salır. Onu da qeyd edək ki, həmin müsahibələr erməni müəlliflərin yaratdığı www.sumgait.info saytında da öz əksini tapıb.

Sumqayıt şəhərində baş verən hadisələrdən sonra ermənilər və onların bədxahların böyük hay-küy qaldıraraq geniş antiazərbaycan kampaniyasına başladı-

---

[1] Аракелян Ю., Кадымбеков З., Овчаренко Г. Эмоции и разум. О событиях в Нагорном Карабахе и вокруг него // «Правда», 1988, 21 марта, №81, с. 3.
[2] Талышинский Р. Сумгаит: Следствию мешают слухи // «Известия», 1988, 30 марта.
[3] Садыхов Г., Мамедов Р. Армяне в Сумгаите. Книга первая. Историко-социологический очерк [1938-1994 гг.]. Баку: Шур, 1994, с.124-125.
[4] «Коммунист Сумгаита», 2 марта 1988
[5] Azərbaycan Respublikası Prokurorluğunun Arxivi, 18/55461-88 №-li cinayət işinin materialları, c.1, i.v. 125-139.

lar. Bu hadisələr onların əlində Dağlıq Qarabağ avantürasını qızışdırmaq və Azərbaycan torpaqlarını ələ keçirmək üçün əsil kozır rolunu oynadı. Hadisələrdən dərhal sonra Ermənistan mətbuatında, SSRİ və xarici ölkə kütləvi informasiya vasitələrində, radio və televiziya kanallarında bir-birinin ardınca Sumqayıtda törədilmiş hadisələr haqqında həqiqətə uyğun olmayan, qurbanların sayını bir neçə dəfə artıran, bu hadisələrdə əsassız olaraq yalnız Azərbaycan xalqını günahkar elan edən materiallar getməyə başladı. Erməni ziyalılarından Z.Balayan, S.Kaputikyan, S.Xanzadyan, Q.Ulubabyan və başqaları çoxsaylı müsahibələrində Sumqayıtda baş verən hadisələri saxtalaşdıraraq, onları Azərbaycan xalqının ayağına yazmağa başladılar. Məsələn, S.Xanzadyan «Yurmala» qəzetinə verdiyi müsahibədə[1] ağ yalana əl ataraq guya Sumqayıtda 32 nəfərin deyil, 450 erməninin öldürüldüyünü, hətta morqda birkalarda 161, 162 və s. sıra nömrəsi olan meyitləri öz gözləri ilə gördüyünü elan etmişdi. Maraqlıdır görəsən S.Xanzadyanı kim hansı şəhərdə, hansı morqa buraxmışdı? Bu sualı heç kim erməni yazıçısına verməmişdi. Ermənilərin Sumqayıtla bağlı uydurmaları Sumqayıt hadisələri ilə bağlı yaradılmış istintaq qrupunun rəhbəri V.Qalkini də narahat etmişdi. Müxbirin «İstintaqa və mane olur?» sualına müstəntiq «ən əvvəl şayiələr mane olur» cavabını vermiş və əlavə etmişdi ki, istintaq tərəfindən qəti müəyyən olunmuşdur ki, Sumqayıtda şuluqluqlar zamanı bir uşaq belə həlak olmamışdır. Həlak olanlar nə 400, nə 500 nəfər deyil, cəmi 32 nəfərdir.[2] Ermənilərin Sumqayıtla gözləntilərinin əsl mahiyyəti obyektivliyini və ədaləti itirməmiş Robert Arakelov öz kitabında təsdiq edir: «Stepanakertdə yüksək vəzifəli şəxslərin dilindən tez-tez aşağıdakı sözləri eşitmək olurdu. Sumqayıt bu an yaxşı fürsət idi, heyf ki, biz belə əlverişli məqamdan tam istifadə edə bilmədik.[3]

Sumqayıt faciəsi hər şeydən əvvəl Azərbaycan xalqına qarşı yönəlmiş, yaxşı təşkil olunmuş təxribat idi. Bu fitnəkarlığın törədilməsində məqsəd – erməni xalqının genosidinin davam etməsi haqqında SSRİ-də və xaricdə ictimai rəy yaratmaq və buna görə də Azərbaycanın tərkibində ermənilərin yaşamaq imkanlarını olmaması, Qarabağın Ermənistana verilməsi ilə bağlı tələblərə bəraət qazandırmaq idi. Xarici kütləvi informasiya vasitələrində bu hadisələrin fövqəladə operativliklə işıqlandırılması indiyə qədər hamıya təəccüblü gəlir. Sumqayıtda baş verənlər haqqında elə ertəsi gün bütün dünya mətbuatı danışmağa başlamışdı. Baş vermiş talanlar haqqında kinofoto sənədlər, şahid ifadələri əsas material kimi həm Ermənistanda, həm də Dağlıq Qarabağda antiazərbaycan isterikasının qızışdırılmasında mühüm vasitəyə çevrilmişdi. Nəticədə dünya ictimai rəyi Azərbaycan xalqına qarşı yönəldilmiş oldu. Vəziyyəti azərbaycanlıla-

[1] «Коммунист Сумгаита», 11 марта 1988
[2] Талышинский Р. Сумгаит: Следствию мешают слухи // «Известия», 1988, 30 марта.
[3] Аракелов Р. Нагорный Карабах: виновники трагедии известны. Баку: 1991, с.29.

rın əleyhinə yönəldən bir məqam da qərb ölkələrində Azərbaycan haqqında obyektiv məlumatların az olması idi. Əsas informasiya mənbələri ya ermənilər, ya da ki, erməniпərəst mərkəzlər idilər. Ən yüksək dövlət xadimləri belə münaqişə haqqında çox az, əksər hallarda yanlış məlumatlara malik idilər. Həm də nəzərə almaq lazımdır ki, Azərbaycan xalqın dünya informasiya vasitələrinə çıxmaq imkanı demək olar ki, yox idi. Ermənistana gəlincə isə, onu dəstəkləyən güclü erməni diasporu xaricdə geniş maliyyə, lobbiçilik, informasiya təsirinə malik idi və onun vasitəsilə geniş ictimai rəyi öz xeyirlərinə dəyişdirə bilirdilər. Bu amillər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sonrakı gedişində Azərbaycan Respublikasının mövqeyinin zəifliyinin, onun informasiya blokadasına alınmasının əsas səbəblərindən oldu.

**"Sumqayıt hadisələrinin geosiyasi nəticələri"** adlanan III fəslin birinci yarımfəslində Azərbaycan SSR rəhbərliyinin Sumqayıt hadisələrinə reaksiyası təhlil edilir. Sumqayıt şəhərində 1989-cu il fevralın 27-28-də baş vermiş hadisələr bütün dünyada geniş əks səda doğurmuş, kütləvi informasiya vasitələrinin, radio və televiziyaların əsas xəbər başlığına çevrilmişdi. Ancaq Azərbaycan SSR rəhbərliyi bu dəfə də qeyri-çeviklik göstərərək əhalini operativ məlumatlandırmaq əvəzinə, gözləmə mövqeyi tutmuş, Moskvanın göstərişlərini gözləmişdi. Yalnız Azərbaycan SSR rəhbərliyi martın 1-də "Azərinform" adından Sumqayıtda baş vermiş şuluqluqların dayandırılması, sənaye, nəqliyyat, ticarət, ictimai-iaşə, məişət xidməti müəssisələrinin normal ahənglə işləməsi, tədris müəssisələrində məşğələlərin davam etməsi, azğınlıq etməkdə ifşa olunmuş şəxslərin hüquq mühafizə orqanları tərəfindən tutulduğunu bildirilməklə kifayətlənmişdi[1]. Martın 3-də isə respublika qəzetlərində Sumqayıtda siyasi vəziyyətə dair Azərinform bir qədər ətraflı məlumatı dərc edildi. Məlumatda fevralın 28-də Sumqayıtda bir dəstə xuliqanın şuluqluq saldığı, Dağlıq Qafqazda və Ermənistanda hadisələr ətrafında fitnəkar şayiələrin, təhrikçi söz-söhbətlərin təsiri altına düşmüş, səbatsız, yetkin olmayan adamların qeyri-hüquqi hərəkətlərə cəlb olunduğu, qeyri-şüuri azğınlıq və emosiyalar şəraitindən istifadə edən cinayətkar ünsürlərin quldurluq hərəkətləri törətdiyi, faciəli hadisələrin baş verdiyi, tələfatın olduğu bildirilirdi. Məlumatda partiya, sovet, hüquq mühafizə orqanlarının vəziyyəti normal hala salmaq üçün qəti tədbirlər gördüyü diqqətə çatdırılır, cinayətkar hərəkətlərdə ifşa olunmuş şəxslərin hüquq mühafizə orqanları tərəfindən yaxalandığı bildirilirdi.[2] Hadisələrdən dərhal sonra Azərbaycanda olan Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrinin birinci müavini P.Demiçev və Azərbaycan KP MK birinci katibi K.M.Bağırov Sumqayıtda yerli əhali ilə görüşmüş, şəhər həyatının əsas

[1]«Kommunist» qəzeti, 1988, 2 mart
[2]Sumqayıtda vəziyyətə dair [Dağlıq Qarabağ hadisələri ilə əlaqədar Sumqayıt şəhərində baş verən qeyri-hüquq hərəkətlərin aradan qaldırılması haqqında ], Kommunist, 1988-ci il, 3 mart.

məsələləri, ictimai asayişin təmin edilməsi, anti-ictimai təzahürlərin təhqiqi üçün görülən tədbirlərlə maraqlanmışlar. Azərbaycan KP MK, Azərbaycan SSR Ali Sovet Rəyasət Heyəti və Nazirlər Soveti Sumqayıtda həlak olanların ailələrinə, qohumlarına və yaxın adamlarına başsağlığı vermişdilər.[1] Bununla yanaşı Azərbaycan partiya rəhbərliyi tələsik olaraq hadisələrdə günahkar axtarmağa başladı. Azərbaycan KP MK 1988-ci il martın 16-da «Sumqayıt Şəhər Partiya Komitəsi bürosunun əhali arasında təşkilatçılığı işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında» məsələ müzakirə etdi. Qəbul edilmiş qərarda Sumqayıt Şəhər Partiya Komitəsinin siyasi naşılıq və məsuliyyətsizlik göstərdiyi qeyd olunur, faciəli hadisələrin şəhər partiya komitəsinin bürosu və onun katiblərinin, Şəhər Sovetinin İcraiyyə Komitəsinin respublikada yaranmış mürəkkəb şəraitə lazımınca qiymət verməməsi, sayıqlığı artırmaq, şəhərdə ictimai asayişi təlim etmək üçün konkret tədbirlər görməməsi, gözləmə mövqeyi tutmaları nəticəsində baş verdiyi vurğulanırdı. Qərarda baş vermiş faciəli hadisələr üçün əsas məsuliyyət Şəhər Partiya Komitəsinin birinci katibi C.Müslümzadənin üzərinə qoyulmuşdu.[2] Azərbaycan KP MK-nın bu qərarından görünür ki, Azərbaycan rəhbərliyi, o cümlədən Sumqayıt şəhər rəhbərliyi üçün baş vermiş hadisələr gözlənilməz olub. Amma bununla belə respublika rəhbərliyi bu hadisələrə ilkin siyasi qiymət verməklə onun Azərbaycan xalqı və dövləti ilə heç bir əlaqəsinin olmadığını bəyan etmiş oldular. Bu həm də o demək idi ki, Sumqayıt hadisələri Azərbaycanın yürütdüyü siyasət olmayıb, hələ səbəbləri araşdırılmalı olan bir müəmmadır. Əslində bu rüsvayçı qərar, eləcə də Azərbaycan kommunist rəhbərliyinin bəlli hadisələrdə sərgilədiyi mövqe əslində erməni separatizminin qızışmasına rəvac verən amilə çevrildi. Faktik olaraq, hadisələrin kökünə və mahiyyətinə varılmadan, partiya-sovet ənənəsinə uyğun olaraq, bütün günah şəhərin birinci şəxslərinin üzərinə qoyuldu. Həmin həyəcanlı günlərdə Azərbaycan rəhbərliyindən heç kim cürət edərək milli iradənin ifadəçisi olmadı, erməni separatizmin və onu dəstəkləyən Moskvanın mövqeyinə qarşı çıxış etməyə özünə iradə tapmadı.1988-ci il martın 25-də Sumqayıt Şəhər Soveti İcraiyyə Komitəsinin iclasında şəhərdə vəziyyəti normallaşdırmaq üçün tədbirlər müəyyənləşdirildi. Qəbul edilmiş qərarda faciəli hadisələrdən dərhal sonra iğtişaşların aradan qaldırılması, əhalinin həyat və sağlamlığının qorunması üçün görülmüş işlər də öz əksini tapmışdı.[3] Şəhər İcraiyyə Komitəsində erməni millətindən olan şəxslərin qəbul edilməsi, onların qaldırdıqları məsələlərə dərhal baxılması təşkil edilmiş, Sumqayıtda və Bakıda onlar üçün 58 mənzil ayrılmışdı. Şəhər İcraiyyə Komitəsinin

---

[1] «Kommunist» qəzeti, 1988, 5 mart

[2] Azərbaycan KP MK-nın «Sumqayıt şəhər partiya komitəsi bürosunun əhali arasında təşkilatçılıq işində böyük nöqsanları, siyasi naşılığı və şəhərdə faciəli hadisələrin qarşısını almaqda fəaliyyətsizliyi haqqında» qərarı. Kommunist qəzeti, 1988-ci il, 19 mart.

[3] ARPİİSSA. F. 1, s. 83, iş. 65, v.42

19 aprel 1988-ci il tarixli iclasında Sumqayıtı tərk etmiş erməni millətindən olan şəxslərlə iş üzrə komissiyada yaradılmışdı. 1988-ci ilin mayın əvvəllərində Sumqayıtdan Ermənistana köçmüş ermənilərin sayı cəmi 2530 nəfər idi ki, onların cəmi bir neçəsi zərər görmüş insanlar idi.[1] Ermənistana onların geri qayıtmaları üçün Azərbaycan SSR hökumətinin səviyyəsində də xüsusi komissiya göndərilsə də, çox az adam geri qayıtmışdı. Şəhəri tərk edənlərin yalnız cüzi hissəsi Ermənistana getmiş və bir müddətdən sonra da oranı tərk etmişlər. Həmin vaxt Ermənistan SSR Nazirlər Sovetinin Sədrinin müavini işləmiş, Ermənistan SSR-ə Sumqayıtdan gəlmiş erməni qaçqınlarla bağlı komissiyaya başçılıq etmiş V.Movsesyan «Qolos Armenii» qəzetinin 26 dekabr 2009-cu il tarixli nömrəsində iddia edir ki, guya Sumqayıtda yaşayan 18600 erməninin 18000 Ermənistan SSR-ə gəlmişdi.[2] Lakin bir sıra məsul şəxslərin göstərdiyi kimi, bütün Sumqayıt erməniləri Ermənistana deyil, Rusiyaya Federasiyasına köçüb getmək istəmişlər.[3] Bütün bunlar Sumqayıt ermənilərinin əksəriyyətinin guya Ermənistana getmələri haqqında erməni təbliğatının növbəti uydurmasını tamamilə təkzib edir. Sumqayıtda zərər çəkmiş ermənilərə maddi yardım göstərilməsi üçün Azərbaycan SSR büdcəsindən külli miqdarda vəsait ayrılmışdı.[4] Azərbaycan SSR Nazirlər Sovetinin 11 mart 1988-ci il tarixli sərəncamı ilə Sumqayıt Şəhər İcraiyyə Komitəsinin büdcəsindən bu məqsədlə 364 min rubl pul ayrılmışdı. Erməni ailələrinə digər yardımlar da göstərilmiş, yeni mənzillər verilmiş, ümumiyyətlə ermənilərin şəhərdə təhlükəsiz və normal şəraitdə yaşamaları üçün zəruri addımlar atılmışdı. Bütün bu faktlar sübut edir ki, 1988-ci il fevral hadisələrindən sonra da həm respublika, həm şəhər, həm də idarələr səviyyəsində ermənilərə maddi-mənəvi dəstək göstərilir, onların hüquqlarının pozulmasına yol verilmirdi. Bu faktlar ermənilərin Sumqayıtda, eləcə də bütün Azərbaycanda ayrı-seçkiliyə, hətta soyqırıma məruz qalmaları haqqında əsassız iddialarını tamamilə təkzib edir. Halbuki erməni şovinistlərinin həyata keçirdikləri soyqırım və deportasiya siyasəti nəticəsində elə həmin ilin – 1988-ci ilin sonlarında Ermənistan SSR-də artıq bir nəfər belə azərbaycanlı qalmamışdı.

Sumqayıt hadisələri 1988-ci il mayın 7-də Azərbaycan KP MK bürosunda yenidən müzakirə edildi. Gərgin keçən müzakirələrdən sonra yeni qərarlar qəbul olundu.[5] Həmin iclasda Sumqayıtda kütləvi iğtişaşlara gətirib çıxarmış səbəblər və şəraitin təhqiqatı ilə bağlı komissiyanın hesabatı da dinlənilmişdi. Hesabat Azərbaycan KP MK Sumqayıt hadisələri ilə bağlı əvvəlki qərarlarından

---

[1] ARPİİSSA, F. 1, s. 83, iş. 59, v.43

[2] Мовсесян В. Сумгаит, составная часть политики деарменизации Азербайджана. http://www. golos.am

[3]Николаев В. Жывый в помощи. http: // www.kodges.ru; Султанов Ч.А.Последний удар империи. Баку, 20 января 1990 г. Баку: Нафта-Пресс, 2004, с.187; Томас де Ваал. Чёрный сад. Армения и Азербайджан между миром и войной. М.: Текст, с.201

[4] ARPİİSSA, F. 1, s. 83, iş 59, v.44

[5] Yenə orada, v.34-49

heç nə ilə fərqlənmirdi. Burada da əsas məsuliyyət şəhər partiya komitəsinin və onun rəhbərliyinin üzərinə qoyulurdu. Hadisələrin baş verməsi zəhmətkeşlərin ideya-siyasi, beynəlmiləl tərbiyəsindəki nöqsanlarla əlaqələndirilir, sosial problemlərə lazımi diqqətin olmaması, mədəni istirahətin təşkilində nöqsanlar, mürəkkəb ekoloji vəziyyət, daxili işlər orqanlarını hazırsızlığı, xüsusi kontingentlərində nöqsanlar xüsusi vurğulanırdı.[1] Tamamilə məxfi qrif adı altında saxlanılan bu sənədlərdə bir sıra məqamlar diqqəti cəlb edir. Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin keçmiş birinci katibi Boris Kevorkovun və başqa yoldaşların Dağlıq Qarabağda baş vermiş hadisələrə görə məsuliyyəti məsələsinə baxılarkən B.Kevorkov çıxış edərək göstərmişdi ki, vilayətdə uzun müddət ərzində erməni millətçiləri tərəfindən Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün fitnəkar, qızışdırıcı məktublar və vərəqələr açıq şəkildə yayılır, imzalar və pul vəsaitləri toplanır. Moskvaya, mərkəzi orqanlara nümayəndə heyətləri göndərilirdi. Ermənistandan gəlmiş emissarlar vilayətdə açıq-aşkar antiazərbaycan təbliğatı aparır, pozuculuq fəaliyyəti ilə məşğul olurdular. B.Kevorkovun çıxışından məlum olur ki, o hələ hadisələr başlamazdan xeyli əvvəl – 1984-1985-ci illərdə bu haqda Bakıya məlumatlar göndərmiş, Z.Balayanın «Ocaq» kitabını buraxdığını, S.Xanzadyanın DQMV-in Ermənistan SSR-nə verilməsi ilə bağlı Moskvaya məktubla müraciət etdiyini Azərbaycan SSR rəhbərliyinin diqqətinə çatdırmışdı. Lakin bütün bunlar Azərbaycan SSR rəhbərliyini narahat etməmişdi, Azərbaycan ziyalıları da separatizmin bu ilkin simptomlarına çevik reaksiya göstərməməklə acizlik nümayiş etdirmişlər. Bir məqam da diqqəti cəlb edir. B.Kevorkov qiyamçıların liderlərinin kimliyinin məlum olduğunu, onların cəzalandırılması vacibliyi haqqında məsələni Azərbaycan SSR rəhbərliyi qarşısında qaldırsa da Moskvanın Azərbaycan SSR-də qeyri-rəsmi nümayəndəsi, Azərbaycan KP MK-nın ikinci katibi V.Konavalov: «bu artıq başqa mövzunun söhbətidir. Bu barədə sonra danışaraq» deyərək onun sözünü kəsmişdi.[2] Bakıda B.Kevorkovu işdən çıxarıb yerinə qatı millətçi H.Paqosyanın gətirilməsini də razılıqla qarşılamışlar. Hərçənd, onun Bakının göstərişlərinə əməl etmədiyini, İrəvana meyl göstərdiyini B.Kevorkov bildirmişdi. Azərbaycan rəhbərliyində bunu bilirdilər, lakin heç nə etmədilər. Çox təəssüf ki, həmin dövrdə Azərbaycan SSR rəhbərliyində xalqın maraqlarını öz maraqlarından üstün tutan, Azərbaycan xalqının mövqeyini ifadə və müdafiə edə biləcək harizmatik lider yox idi. Azərbaycan KP MK-ın birinci katibi vəzifəsində Kamran Bağırovu Əbdürrəhman Vəzirov əvəz etsə də bu kadr dəyişikliyi də vəziyyətin dəyişməsinə kömək etmədi. Tamamilə Moskvanın göstərişi ilə hərəkət edən, Azərbaycan xalqının qayğı və problemlərindən uzaq, real vəziyyəti dərk etmək iqtidarında olmayan Ə.Vəzirovun fəaliyyəti Dağlıq Qarabağın məsələsində Azərbaycan SSR mövqe-

[1] ARPİİSSA, F. 1, s. 83, iş 59, v.42-77
[2] İsmayılov A. Sumqayıt-SSRİ-nin süqutunun başlanğıcı. Bakı, Çaşıoğlu, 2010, s.179-180

lərinin zəifləməsinə, vilayətin getdikcə Azərbaycan SSR hakimiyyətinin nəzarətindən uzaqlaşmasına, Ermənistanın isə əksinə, Dağlıq Qarabağı ələ keçirmək siyasətinin daha açıq, təcavüzkar xarakter almasına gətirib çıxardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin dövrdə Azərbaycanda da cərəyan edən neqativ prosesləri təhlil edərək göstərirdi ki, "əgər Heydər Əliyev o vaxt, xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpağımız işğal altına düşməzdi. Əfsuslar olsun ki, o illərdə hakimiyyətdəki insanlar vəzifə borcunu ləyaqətlə yerinə yetirə bilməmişlər və beləliklə Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycana qarşı elan edilməmiş müharibə başlamışdır. Torpaqlarımız işğal olunmağa başlamışdır".[1]

Fəslin ikinci paraqrafında Sumqayıt hadisələrində SSRİ rəhbərliyinin mövqeyi öyrənilmiş və bu hadisələrdən sonra erməni təcavüzünün genişlənməsi işıqlandırılmışdır. Qeyd olunur ki, Sumqayıt hadisələri Sovet rəhbərliyində çaşqınlıq yaratdığından dərhal informasiya verilmədi. Yalnız martın 1-də SSRİ-in mərkəzi mətbuatda Sumqayıt hadisələri ilə bağlı SİTA-ın kiçik məlumatı verildi. Məlumatda fevralın 28-də Sumqayıt şəhərində bir qrup xuliqanın şuluqluq salması, azğınlıq və zorakılıq hallarının olması qeyd olunur, şəhərdə həyatı normal hala salmaq, intizam və ictimai asayişi təmin etmək üçün tədbirlər görüldüyü, istintaq orqanlarının təhqiqat apardıqları vurğulanırdı.[2] Sov.İKP MK-nın Siyasi Büro hadisələrə yalnız fevralın 29-da münasibət bildirdi. Siyasi Büronun həmin gün keçirilmiş iclasında Azərbaycan SSR və Ermənistan SSR-də baş verən hadisələrlə əlaqədar yaranmış vəziyyət müzakirə edilmişdi. Büronun artıq dərc olunmuş stenoqramının təhlili göstərir ki, SSRİ-in siyasi rəhbərliyi vəziyyətin hansı istiqamətdə inkişaf etməsindən xəbərsiz idilər. Həmin iclasda müdafiə naziri D.Yazovun Sumqayıtda hərbi vəziyyət elan edilməsi, qoşun yeridilməsi yolu ilə asayişi bərpa etmək təklifinə M.Qorbaçov qarşı çıxaraq asayişi pozanlarla mübarizəyə fəhlə sinfini, könüllüləri cəlb etməyi təklif etmişdi.[3] Bütün bunlar rəhbərliyin vəziyyəti nəzarət altına almaq üçün konkret hansı addımlar atmağın lazım gəldiyini bilməməsinin təzahürü idi. Sumqayıtda baş verənlər haqqında iclasda qeyri-dəqiq məlumatların səslənməsi də bunu təsdiq edirdi. Demək olar ki, hadisə ilə əlaqəli olan bütün şəxslər SSRİ rəhbərliyinin belə seyrçi münasibətinin qəsdən göstərildiyini və talanın baş tutmasına əlverişli şəraitin yaradılması kimi izah edirlər. Belə görünür ki, DTK-dan Kremlə real vəziyyəti əks etdirməyən məlumatlar verilirdi. Belə ki, fevralın 28-də Sumqayıtda talanların və qətllərin davam etdiyi faktdır. Ancaq fevralın 28-də DTK-nın sədri Çebrikov M.Qorbaçova zəng edib Sumqayıtda vəziyyətin normal olduğunu deyir. Bu barədə də M.Qorbaçov fevralın 29-da Siyasi Büronun iclasında məlumat verərək məsuliyyəti Çebrikovun üzərinə qoymuşdu. Ancaq bununla belə Qorbaçov özü də qəti qərar qəbul edilməsində maraqlı deyildi. O,

---

[1] Əliyev İ. Respublika günü münasibəti ilə təntənəli mərasimdə çıxış, 25 may 2012-ci il. «Azərbaycan» qəzeti, 2012-ci il, 27 may.
[2] «Известия», 1988, 1 marta
[3] Заседание Политбюро ЦК КПСС от 29 февраля 1988 г. Журнал «Родина», 1994, №4, с. 82-90

DTK-nı hadisələrin bu istiqamətdə inkişaf etməsində və ümumiyyətlə, ölkədə vəziyyətə nəzarət etməməkdə günahlandırırdı.

Talan hadisəsi baş tutduqdan yalnız üç gün sonra mərkəzi hakimiyyət orqanları işə qarışaraq cinayətkarları həbs etməyə başladılar. Moskvadan SSRİ Prokurorluğu yanında xüsusi işlər üzrə müstəntiq Kaliniçenko istintaq prosesinə rəhbərlik etmək üçün Azərbaycana, Sumqayıta gəldi. İlkin istintaq başladı və yüzlərlə şahid və ittiham olunan dindirildi. Mərkəzi Komitənin milli məsələlər üzrə katibi olmuş, Mixail Qorbaçovun ən yaxın adamı və yenidənqurma siyasətinin ideoloqu Aleksandr Yakovlev istintaqın aparılması ilə bağlı «istintaqın üzdən aparılmasında kim maraqlı idi və istintaqın dərinləşdirilməməsində maraqlı kim idi» sualına belə cavab verirdi: «KQB! KQB!.[1] Toplanmış materialların sonrakı aqibəti barədə heç bir məlumatım yoxdur»[2]. O zaman Sumqayıt şəhər icraiyyə komitəsinin sədr müavini olmuş Əli Həsənov da əldə edilmiş sübutların aparılması və ört-basdır edilməsi haqda bildirib: «Sonra bütün bu sənədləri ki, bunlar toplamışdı, şəhərdə nə yığmışdılar – əşyayi-dəlil, sübut, hamısını apardılar Moskvaya. Hamısını! Əməliyyat kassasından olan o arxiv sənədləri də, sxemləri də, ştativləri də götürdülər, hamısını yox elədilər! Yəni biz bunu sonra başa düşdük bunların hamısını götürüb apardılar Moskvaya. Biz dərk edə bilməzdik ki, bura gələn qrup nə məqsədlə gəlib?!».[3]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan dövlətinin Sumqayıt hadisələrinin araşdırılmasında maraqlı olduğunu bəyan edib: «1988-ci ilin fevralında Sumqayıtda baş vermiş hadisələr əslində Azərbaycan xalqına qarşı törədilmiş təxribatdır. İstintaqın hədəfi təxribatın təşkilatçılarını müəyyənləşdirməkdir. İstintaq hərəkətləri tam başa çatdıqdan sonra bu hadisəyə siyasi qiymət veriləcək. Azərbaycan dövləti bu cinayətin açılmasında və təşkilatçıların müəyyənləşməsində maraqlıdır və bu işdə əməkdaşlıq etmək istəyən şəxslər, təşkilatlar və dövlətlərlə əməkdaşlığa açıqdır».[4]

O vaxt SSRİ-nin partiya rəhbərliyində iki qruplaşmanın mövcudluğu heç kim üçün sirr deyildi. A.Yakovlevin başçılıq etdiyi liberal-demokratlar və İ.Liqaçovun başçılıq etdiyi, mühafizəkarlar. Sumqayıt da daxil olmaqla müxtəlif münaqişə ocaqlarının qızışması hər iki qrupa sərfəli idi. A.Yakovlevin tərəfdarları (V.Medvedev, E.Şvardnadze, A.Sobçak və b.) açıq şəkildə ifadə etməsələr də SSRİ-in mövcud sərhədlərin, inzibati-ərazi quruluşunun dəyişilməsinə qarşı prinsipial şəkildə çıxış etməməklə ölkədə separatizmin baş qaldırmasına rəvac verirdilər. Sumqayıt hadisələrindən sonra Yakovlevin İrəvana Liqaçovun isə Bakıya getməsi təsadüfi sayılmamalıdır.

Bununla da Sumqayıt ölkədə sabitsizliyin inkişafında mühüm mərhələ olmaqla, SSRİ-nin süqutunu da tezləşdirən amilə çevrildi. Ölkə daxilində, həm partiya rəhbərliyində, həm də cəmiyyətdə mühafizəkarlarla liberallar arasında

---

[1]Azərbaycan Televiziyası və Radiosu Qapalı Səhmdar Cəmiyyətinin (Azteleradio QSC) videoarxivi, «Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi» sənədli film – I hissə Qovluq 301099, rulon 4500; «Azteleradio» QSC-nin videoarxivi «Sovet imperiyasının gizlinləri – Qriqoryanın işi» sənədli filmi – II, III hissə. Qovluq 301100, rulon 4506.

[2] Yenə orada

[3] Yenə orada

[4] Yenə orada

qəti qütbləşmə baş verdi. Hadisələrin belə istiqamət almasında, SSRİ-də ictimai rəyin anti-azərbaycan ruhunda formalaşmasında kütləvi informasiya vasitələrinin də az rolu olmadı. O zaman mərkəzi mətbuat orqanlarında bölgədə gedən proseslər haqqında demək olar ki, obyektiv məlumat verilmirdi. Ölkə ictimaiyyəti nə Ermənistandan didərgin salınmış azərbaycanlıların taleyi, nə də Dağlıq Qarabağda etnik təmizləmələr haqqında heç bir təsəvvürə malik deyildilər. Bu da münaqişə tərəflərindən birinin dəstəklənməsinə, digərinin isə bütün hadisələrdə günahlandırılmasına gətirib çıxartdı. Antiazərbaycançı qüvvələrin Sumqayıt faciəsindən istifadə edərək azərbaycanlıların vəhşi obrazını yaradılması kimi iyrənc niyyətləri baş tutmuşdu. Sumqayıt hadisələri Rusiya elitasında Azərbaycan əleyhinə əhval-ruhiyyənin artmasına təkan verdi. Rusiyada antiazərbaycan ovqatın güclənməsində bu ölkənin yuxarı hakimiyyət eşelonlarında, elmi və iqtisadi strukturlarında möhkəm yer tutan erməni diasporunu gizli və ya açıq fəaliyyətini də mütləq qeyd etmək lazımdır. Azərbaycanlılar isə neft-qaz sahəsi istisna olmaqla keçmiş SSRİ-də yüksək eşelonda təmsil olunmamışlar. Əslində bu vəziyyət indi də dəyişilməz qalmaqdadır.

Məhz Sumqayıt SSRİ-nin süqutunu labüdləşdirən qanlı hadisələr zəncirinin mühüm həlqəsi oldu. Sumqayıtdan sonra Sovet İttifaqının müxtəlif bölgələrində baş verən oxşar hadisə və proseslər bu versiyanı həyatiliyini sübut etdi.

Amerika Birləşmiş Ştatlarının Senatı da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə 19 noyabr 1989-cu ildə qəbul etdiyi qətnamədə Sumqayıt hadisələrini xüsusi vurğulayırdı.[1]Sumqayıt təxribatı ABŞ Senatının qətnaməsində öz əksini tapmaqla eyni zamanda həm erməni diasporunun, Ermənistanın millətçi dairələrinin və həm də ABŞ-ın maraqlarına cavab verən məzmunda rəsmiləşdi. Maraqlıdır ki, ABŞ Senatının bu qətnaməsində Arkadi Volskinin rəhbərlik etdiyi Xüsusi İdarəetmə Komitəsinin yaradılması alqışlanır, amma onun qeyri-effektiv olması vurğulanırdı. Bu hadisələrdən sonra Ermənistanda yaşayan 250 mindən artıq azərbaycanlının Ermənistan SSR-dən deportasiyası prosesi başlandı.

Sumqayıt hadisələrindən sonra SSRİ rəhbərliyinin loyal münasibətindən ruhlanan Ermənistan Dağlıq Qarabağın ilhaqını həyata keçirmək üçün bir sıra hüquqa zidd siyasi qərarlar qəbul etdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-in Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi. SSRİ Ali Soveti Rəyasət Heyəti iyulun 18-də keçirilmiş iclasında milli-ərazi bölgüsünün dəyişilməsinin mümkünsüzlüyünü təsdiq etsə də, on gün sonra – iyulun 28-də vilayətdə fövqəladə vəziyyət tətbiq etməklə, orada yaşayan azərbaycanlıların qovulmasının əsasını qoydu. 1989-cu il yanvarın 12-də Arkadiy Volskinin başçılığı ilə DQMV-də Xüsusi İdarəetmə Komitəsi yaratdı. Bununla muxtar vilayət faktik olaraq Azərbaycan Respublikası nəzarətdən çıxmış oldu. Həmin ilin dekabrın 1-də Ermənistan SSR Ali Soveti DQMV-in Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar verdi, 9 yanvar 1990-cı ildə isə muxtar vilayəti respublikanın iqtisadi planına daxil etdi.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın nəticələrinə yekun vurulmuş, ümumiləşdirmələr aparılmışdır. Bir daha qeyd olunur ki, Sumqayıt hadi-

---

[1]Султанов Ч.А. Последний удар империи. Баку, 20 января 1990 г. Баку: Нафта-Пресс, 2004, с.141

sələrinin tədqiqi, çoxsaylı sənədlərin və materialların təhlili sübut edir ki, bu hadisələr erməni millətçiliyinin Azərbaycan xalqına qarşı incəliklə həyata keçirdiyi təxribatı idi.

Sumqayıt təxribatı ermənilərin Azərbaycan Respublikası torpaqlarını ələ keçirmək, azərbaycanlıları öz doğma yurd-yuvalarından deportasiya etmək kimi strateji məqsədlərini həyata keçirməkdə həlledici məqam oldu. Azərbaycan Respublikası torpaqlarının işğalı, milyonlarla insanın qaçqın düşməsi Sumqayıt hadisələrinin real nəticəsidir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

**Monoqrafiya**

1. Azərbaycana qarşı Sumqayıt təxribatı –“Qriqoryanın işi”. Bakı, 2014, (Azərbaycan, rus və ingilis dillərində)

**Məqalələr**

2. “Azərbaycan Respublikası prezidentinin antiböhran tədbirlər paketi və ölkədə ictimai-siyasi sabitliyin qorunması istiqamətində görülən işlər”. AMEA Tarix İnstitutunun Elmi əsərləri. Bakı, 2009, cild 31, s.139-145
3. “1988-ci il Sumqayıt hadisələri və mərkəzi hakimiyyət orqanları AMEA Tarix İnstitutunun Elmi əsərləri. Bakı, 2011, cild 37, s.88-94
4. Сумгаитские события 1988 года и «армянский вопрос» на Кавказе. Kazırgı Zaman: pikirler əlemi filosofiya almanaxı (Философский альманах современность: Мир мнений), №2, Алматы 2012, с. 115-124
5. “1988-ci il Sumqayıt hadisələri və Qafqazda “Erməni məsələsi”nin tarixinə dair”. AMEA Tarix İnstitutunun elmi əsərləri Bakı, 2012, cild 40, s. 374-388 (Dərbənd şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri mövzusunda beynəlxalq elmi konfransın materialları)
6. «Армянский вопрос» на Кавказе. Международный научный журнал Кавказ и Мир Тбилиси, 2014, № 18, ст.119- 122
7. “Sumqayıt hadisələri: erməni təxribatı”. Strateji təhlil. Bakı, 2014, №3 (10), s.87-94

**Ibrahim MAMMADOV**

# INTEGRAL PART OF ARMENIA'S AGGRESSIVE POLICY AGAINST AZERBAIJAN: 1988 SUMGAYIT EVENTS

## SUMMARY

For the first time in the national historiography, the dissertation studies causes and roots of the tragic events that happened in Sumgait in February, 1988. It was Armenian provocation committed to justify separatism, terrorism and future invasive war against Azerbaijan.

The dissertation consists of introduction, three chapters, seven paragraphs, conclusion and list of the literature used. The introduction substantiates urgency and scientific value of the theme, gives historiographic and source analysis of the research, determines targets and tasks, theoretical and practical significance of the dissertation.

The first chapter of the dissertation is entitled "Political situation in the USSR and Azerbaijan SSR on the eve of Sumgait events". The main objective of the chapter is to analyze the events in the former USSR and Azerbaijan SSR in the 80s of the $20^{th}$ century, the processes which resulted in the exacerbation of interethnic relations in the country, to study aggressive policy pursued by Armenians to occupy Nagorno-Karabakh.

The second chapter of the dissertation entitled "Essence and goals of Sumgait provocation" analyzes socio-political conditions of the outbreak of Sumgait events, preparation and realization of criminal political provocation. Study of Sumgait events proves that it was an intricate provocation of Armenian nationalists against Azerbaijan. Having committed this provocation they created a favorable ideological and political ground for the occupation of Azerbaijani territories. With this purpose Armenian vandals resorted to the most inhuman method shedding blood of their fellow countrymen to satisfy their own national-political ambitions. Both the organizers and active executors of this tragedy were Armenians.

The third chapter is entitled "Geopolitical consequences of Sumgait events". This chapter highlights reaction of the leadership of Azerbaijan SSR to what happened in Sumgait.

The dissertation also analyzes the position of the USSR leadership, which actually assisted in the Armenian aggression. It is underlined that one of the causes of Sumgait events was the struggle for influence in the USSR leadership, confrontation of the so-called liberals and conservatives. In the aftermath, Sumgait became a factor that accelerated fall of the Soviet Union. Just after Sumgait, Armenia proceeded to open annexation of Nagorno-Karabakh.

The author's main conclusions are covered in the Conclusion of the dissertation.

**Ибрагим Мамедов**

# СУМГАИТСКИЕ СОБЫТИЯ 1988 года: СОСТАВНАЯ ЧАСТЬ АГРЕССИВНОЙ ПОЛИТИКИ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В диссертации впервые в отечественной историографии исследуются причины и корни трагических событий, произошедших в городе Сумгаите в феврале 1988 года.

Диссертация состоит из введения, трех глав, семи параграфов, заключения и списка использованной литературы. Во введение диссертации обоснованы актуальность и научная значимость темы, дан историографический и источниковедческий анализ исследования, определены цели и задачи, теоретическое и практическое значение диссертации.

Первая глава диссертации называется **«Политическая обстановка в СССР и Азербайджанской ССР накануне сумгаитских событий»**. Основной целью главы является анализ событий 80-х годов XX столетия в бывшем СССР и Азербайджанской ССР, процессов, приведших к обострению межнациональных отношений в стране, изучение агрессивной политики, начатой армянами с целью захвата Нагорного Карабаха.

Во второй главе диссертации – **«Сущность и цели сумгаитской провокации»** - подробно анализируются социально-политические условия возникновения сумгаитских событий, подготовка и осуществление преступной политической провокации. Исследование сумгаитских событий доказывает, что это была изощренная провокация армянских националистов против Азербайджанского народа. Совершив эту провокацию, они создали благоприятную идеологическую и политическую почву для захвата азербайджанских земель.

Последняя, третья глава диссертации называется **«Геополитические последствия сумгаитских событий»**. В этой главе освещается реакция руководства Азербайджанской ССР на события в Сумгаите. Азербайджанское руководство не смогло продемонстрировать смелую позицию, отвечающим национальным интересам. Волочась в хвосте событий, оно не сумело достойно отреагировать на антиазербайджанскую деятельность армянских сепаратистов. Одной из причин этого явилось то, что в руководстве республики не оказалось лидера, способного объединить народ, для которого национальные интересы были бы превыше всего.

Основные выводы автор нашли свое отражение в **«Заключение»** диссертации.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə
AMEA TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**МАМЕДОВ ИБРАГИМ МАМЕД оглу**

# СУМГАИТСКИЕ СОБЫТИЯ 1988 ГОДА: СОСТАВНАЯ ЧАСТЬ АГРЕССИВНОЙ ПОЛИТИКИ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА

**Специальность 5503.02- Отечественная История**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**Баку— 2015**